www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 aprel 2017-ci il Çərşənbə axşamı № 80 (6694) Qiymətı 60 qəpik

**Xəbər**

## "MTN işi" üzrə zərərçəkmiş dəhşətli avtoqəzada yanıb kül oldu

yazısı səh.14-də

**Gündəm**

### Prezident Yevlaxda keçirdiyi müşavirədə mühüm mesajlar verdi




İlham Əliyev "2017-ci il Azərbaycan üçün çox uğurlu il olacaq" dedi; "Sahibkarlarımızın istənilən bazara çıxış əldə etməsi üçün heç bir siyasi əngəl yoxdur"...

yazısı səh.7-də

### Nazir Zakir Həsənov İranda Əli Laricani ilə görüşdü

yazısı səh.6-da

### Referendumdan sonra Türkiyə üçün yeni dönəm başlandı

yazısı səh.9-da

### Almaniyada türk-müsəlman miqrantlara təhlükə varmı...

yazısı səh.10-da

### KTMT-yə baş katibliyi alan Ermənistanın "dili" uzanıb...

yazısı səh.11-də

### Moskva görüşündən sonrakı Suriya səssizliyi - Ağ Ev Kremllə anlaşdımı..

yazısı səh.10-da

### "Azərbaycan fövqəladə vəziyyətlərdə həmişə bizə dəstək olub" - İran səfirliyinin sözçüsü

yazısı səh.4-də

### Siqareti qadağa qanunu qəbul edilmədən tərgidin - faydalı məsləhətlər

yazısı səh.13-də

### Britaniya kəşfiyyatı İrandakı seçkilərə barmaq uzadır-şok iddialar

yazısı səh.4-də

### Azərbaycan əhalisinin sayı 10 milyona yaxınlaşır

yazısı səh.13-də

### Bərdə sakininin evində avtomat, 17 qumbara aşkarlandı

yazısı səh.14-də

## ABŞ prezidentinin Bakıdakı "ortaqları" gülünc durumda...

# ZİYA MƏMMƏDOVUN QÜRUBUNUN ŞOK SİRLƏRİ - HƏBS...

İqtidarda etibarını itirən sabiq nazir və oğlunun Trampla bağlı yanlış piarı onların sonunu tezləşdirdi; amma hakimiyyətin onlarla yollarını birdəfəlik ayırmasının başqa səbəbləri də var; oğlu niyə üzə çıxmır?




yazısı səh.5-də

# Azərbaycan ordusu müharibə hazırlıqlarına başladı

Silahlı Qüvvələrimiz həyəcan siqnalı ilə ayağa qaldırıldı; deputatdan ilginc açıqlamalar; "Ordumuz torpaqlarımızı düşməndən azad etmək üçün həmişə hazır olmalıdır"

yazısı səh.3-də



### Ramiz Mehdiyevin ad gününü deputatlar necə təbrik etdilər

yazısı səh.6-da



İbrahim Mehdiyev

### Xanım jurnalisti döyən icra başçısı məhkəməyə verilir

yazısı səh.3-də



*Mübariz Əhmədoğlu:*

### "Türkiyədə "balkon çıxışı" Osmanlı İmperiyası dövründə yaranıb"

yazısı səh.8-də



## "Məndə olan məlumata görə pulları xaricdə, orada-burada gizlədirdilər" - prezident İlham Əliyev

**"İxrac edilən malların satışından əldə edilən gəlir tam şəkildə ölkəmizə gəlməlidir". Bu sözləri Azərbaycan prezidenti İlham Əliyev qeyri-neft ixracatçılarının Yevlaxda keçirilən respublika müşavirəsində deyib.**

Dövlət başçısı bildirib ki, bunun üçün indi nəzarət mexanizmləri tətbiq olunur: "Ona görə ki, əvvəlki illərdə, məndə olan məlumata görə, göndərilən malların dəyərinin təxminən 30 faizi ölkəmizə qayıtmırdı, orada-burada gizlədirdilər. Xaricdə müxtəlif hesablarda gizlədirdilər. Buna yol verməmək olmaz. Valyuta tam şəkildə gəlməlidir və əlbəttə ki, indi yeni mexanizm işə düşüb. Hansısa şirkət investisiya və ixrac təşviqini almaq istəyirsə, mütləq bu qaydalara riayət etməlidir".

**Prezident İlham Əliyev nəqliyyat sektorunun böyük əhəmiyyəti olduğunu vurğulayıb:** "Biz indi ixracı böyük dərəcədə artıracağıq. Biz ixracı nəqliyyat vasitəsilə xarici bazarlara ötürürük. Ona görə bizim vaqon parkımıza baxmalıyıq. Biz indi yeni elektrovozlar, vaqonlar alırıq. Vaqonların sayı, həcmi ixrac ediləcək məhsullarla üst-üstə düşməlidir. Dəmir yolunun reabilitasiyası, sürətin artırılması, bütün bunlar da ixraca, tranzitə hesablanmış məsələlərdir".



## Təhsil naziri Yardımlıda vətəndaşları qəbul edib

**Aprelin 17-də təhsil naziri Mikayıl Cabbarov Yardımlı şəhərindəki Heydər Əliyev Mərkəzində Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayon sakinlərini qəbul edib.**

Təhsil Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və ya iş yerinin bir məktəbdən, həmçinin bir rayondan digərinə dəyişdirilməsi, gənc müəllimlər üçün həvəsləndirmə tədbirlərinin tətbiqi, təhsil haqqından azad olunma, müəllim əməyinin qiymətləndirilməsi və digər məsələlərlə əlaqədar müraciət ediblər.

Qəbulda vətəndaşların müraciəti dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

## Avropa İttifaqı-Azərbaycan biznes forumunun vaxtı məlum oldu

**Avropa İttifaqı-Azərbaycan biznes forumunun vaxtı məlum olub. APA-nın Avropa İttifaqının Bakı nümayəndəliyinə istinadən verdiyi məlumata görə, forum iyunun 8-də Bakıda keçiriləcək. Bu, sayca 3-cü Aİ-Azərbaycan biznes forumudur. Sonuncu biznes forum ötən ilin mayında keçirilib.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Anar Ələkbərov I vitse-prezidentin köməkçisi təyin olundu

**Heydər Əliyev Fondunun icraçı-direktoru, Heydər Əliyev Mərkəzinin direktoru, Avtomobil növləri federasiyasının rəhbəri Anar Ələkbərov Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban xanım Əliyevanın köməkçisi təyin olunub.**



BAKU.WS-in əldə etdiyi məlumata görə, bununla bağlı rəsmi təyinat olub. Yaxın vaxtlarda ictimaiyyətə məlumat veriləcəyi gözlənilir.

Qeyd edək ki, Heydər Əliyev Fondunun rəsmi açılış mərasimi 10 may 2004-cü ildə baş tutub. Anar Ələkbərov həmin tarixdən fondun icraçı-direktoru vəzifəsini daşıyıb.

## Məhsul istehsalı zəif olan sahələrə kredit ayrılacaq

**Azərbaycanda istehsal lazımi səviyyədə olmayan sahələrə dövlət tərəfindən kredit ayrılacaq.**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev qeyri-neft ixracatçılarının Yevlaxda keçirilən respublika müşavirəsində deyib.

"Azexport" portalı barədə danışan dövlət başçısı portalın müfəssəl məlumatlarla təmin edilməsinin vacibliyini önə çəkib. "Sahibkarlar bu portala öz fəaliyyətləri haqqında məlumat yerləşdirsinlər və mütəmadi olaraq bu portalla maraqlansınlar, görsünlər ki, nəyə tələbat var, hansı sifarişlər yerləşdirilir. Çünki biz artıq bunun ilkin nəticələrini görürük. Portalın fəaliyyəti nəticəsində artıq bir çox kontraktlar imzalanıb. Ancaq, eyni zamanda, nəyi görürük? Bəzən sifariş gəlir, ancaq ixrac ediləcək məhsulumuz olmur. Ona görə, bu portalın mənası təkcə ondan ibarət deyil ki, biz öz məhsulumuzu ixrac edək, halbuki birinci vəzifə bundan ibarətdir. Eyni zamanda, bu portal bizə tələbat haqqında, regionlar haqqında məlumat verəcək, hansı regiondan, hansı ölkədən hansı məhsula tələbat var və bunu dövlət qurumları da, sahibkarlar da görəcək. Görəcək ki, misal üçün filan məhsula tələbat var, ancaq Azərbaycanda bunun istehsalı lazımi səviyyədə deyil. Deməli, dövlət də Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə o sahəyə kreditlər verəcək. Sahibkar da görəcək ki, əgər o məhsulu istehsal etsə, yetişdirsə, bunun bazarı olacaq. Ona görə, buna nail olmaq üçün birinci növbədə, bütün Azərbaycan şirkətləri öz məhsulları, ixracyönümlü məhsulları haqqında "Azexport" portalına məlumatlar yerləşdirsinlər və bu portalı izləsinlər. Əlbəttə ki, dövlət qurumları da daim monitorinq aparmalıdırlar. Tələbat əslində təklifi də stimullaşdıracaq", - deyə o vurğulayıb.

## "Komaya düşəndə qızını çağırıb..."

### Sabir Rüstəmxanlıdan dünyasını dəyişən bacısı oğlu ilə bağlı ürək dağlayan sözlər



**Milli Məclisin sabiq deputatı, Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri Sabir Rüstəmxanlıya ağır itki üz verib: bacısı oğlu, gənc müğənni Vüqar İsrafilov dünyasını dəyişib.**

Yeniçağ.az-a açıqlama verən S. Rüstəmxanlı bacısı oğlunun xərçəng xəstəliyindən dünyasını dəyişdiyini dedi:

"Vüqar Mədəniyyət və İncəsənət Universitetini bitirmişdi, Abşeron mədəniyyət şöbəsində çalışırdı. Çox istedadlı idi, qeyri-adi musiqi duyumu, həzin səsi, bəstəkarlıq, rejissorluq qabiliyyəti vardı. Bir il əvvəl xəstəlik başlandı, Bakıda beyin əməliyyatı olundu. Başında şiş vardı. Qarşısını almaq mümkün olmadı. İrana da aparıldı, alternativ tibbdən istifadə olundu, amma xeyri olmadı. Dünən axşam keçindi, gecəylə Yardımlıya gətirdik, bu gün də dəfn etdik".

Dayısı mərhum Vüqarın arzularından da danışıb:

"Mədəniyyət xadimi olmaq istəyirdi; kinolara çəkilirdi, daha böyük rollar arzusundaydı. Mənim şeirlərimə mahnı bəstələmək fikrindəydi. Çox təmiz insan idi. Son 3 gündə komada idi. Komaya düşməzdən əvvəl bircə dəfə "Duyğu" deyə, qızının adını çağırıb. 32 yaşı vardı, iki körpə balasını atasız qoydu".

Allah rəhmət eləsin!

## Azərbaycan Almaniyaya çay və nar ixrac edəcək

**"Bu ilin yanvarında 18 şirkətin iştirakı ilə Almaniyaya təşkil edilən ixrac missiyası çərçivəsində bu ölkəyə çay və narın ixracı ilə bağlı ilkin razılaşma əldə edilib".**

APA-nın məlumatına görə, bunu iqtisadiyyat naziri Şahin Mustafayev qeyri-neft ixracatçılarının Yevlaxda keçirilən respublika müşavirəsində deyib.

İsveçə nar şirəsinin ixracı ilə bağlı müqavilə imzalandığını deyən nazir bildirib ki, Pakistan və Əfqanıstana həyata keçirilən ixrac missiyaları çərçivəsində quru süd və süd məhsulları, nar şirəsi, qənnadı məhsulları, mebel, boru, metal konstruksiyaları və digər tikinti materiallarının ixracı üzrə, Qətərə ixrac missiyası çərçivəsində isə ət, nar şirəsi və Naftalan neftindən istehsal edilən kosmetoloji və tibbi məhsulların ixracı ilə bağlı ilkin razılaşmalar əldə edilib.

## 1,8 milyon manatlıq dələduzluq edən iş adamına 10 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən "İnşaat-E" MMC-nin direktoru Kənan Quliyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın xəbərinə görə, hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, K. Quliyev 10 il müddətində azadlıqdan məhrum edilib. Məhkəmə onun zərərçəkənlərə vurulan ziyanın müəyyən hissəsini ödəməsini nəzərə alıb.

İttihama görə, K. Quliyev zərərçəkmiş şəxslər - Şahin Mahmudov, Əbülfəz Abbasov və digər şəxslərlə armatur ticarəti adı ilə ümumilikdə 1 milyon 800 min manatdan çox dələduzluq edib.

K. Quliyev bir qrup şəxslə əlbir olaraq, əvvəllər də dələduzluqda ittiham olunub. Bundan əvvəl ona Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 2 il sınaq müddəti təyin edilməklə, şərti cəza verilib.



## DİN-in mətbuat xidmətinə yeni şöbə rəisi təyin edildi

**Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətində yeni təyinat olub.**

APA-nın məlumatına görə, bununla bağlı daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb.

Əmrə əsasən DİN-in mətbuat xidmətinin informasiya bölməsinin rəisi polis polkovnik-leytenantı İlham Babayev tutduğu vəzifədən azad edilərək mətbuat xidmətinin Kütləvi İnformasiya Vasitələri və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi təyin edilib.

Xatırladaq ki, İ. Babayevə qədər bu vəzifədə polis polkovnik-leytenantı Orxan Mansurzadə çalışıb. DİN-in mətbuat xidmətinin rəhbəri olmuş Sadiq Gözəlov bir müddət əvvəl təqaüdə göndərilib.

Onun yerinə mətbuat xidmətinin rəis müavini olmuş, polis polkovniki Ehsan Zahidov, mətbuat xidmətinin rəis müavini vəzifəsinə isə O. Mansurzadə təyin edilib.

## Dövlət büdcəsi 179 mln. manatlıq profisitlə icra olunub

**Bu ilin yanvar-fevral aylarında dövlət büdcəsinin gəlirləri 2370,5 mln. manat, xərcləri 2191,7 mln. manat olub, büdcənin profilini (178,8 mln. manat) ümumi daxili məhsulun 1,8%-ni təşkil edib.**

"APA-Economics" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, daxilolmaların 19,4%-i əlavə dəyər vergisi, 13,0%-i hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 5,6%-i fiziki şəxslərin gəlir vergisi, 4,7%-i aksizlər, 10,8%-i digər vergilər, 46,5%-i isə vergi olmayan gəlirlər hesabına təmin edilib.

Büdcə vəsaitlərinin 28,6%-i iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 18,1%-i sosial müdafiə və sosial təminat, 14,8%-i ümumi dövlət xidmətləri, 10,3%-i təhsil və səhiyyə sahələrinin, 28,2%-i isə digər sahələrin maliyyələşdirilməsinə xərclənib.

# Azərbaycan ordusu müharibə hazırlıqlarına başladı

## Silahlı Qüvvələrimiz həyəcan siqnalı ilə ayağa qaldırıldı; deputatdan ilginc açıqlamalar; "Ordumuz torpaqlarımızı düşməndən azad etmək üçün həmişə hazır olmalıdır"

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən aprel ayının 16-da qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə genişmiqyaslı təlimlər başlayıb.**

"Genişmiqyaslı təlimlərin keçirilməsi planına uyğun həyəcan siqnalı ilə qaldırılan qoşunlar və komanda idarəetmə məntəqələri əməliyyat təyinatı rayonları istiqamətində hərəkət edirlər".

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qoşunların idarə edilməsi, onların təşkili üzrə yüksək tələblərə uyğun olaraq, gizli və operativ şəkildə həyata keçirilir.

Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

Təlimin hazırkı mərhələsinin şərtlərinə uyğun olaraq qoşunlar planlı tədbirlər yerinə yetirir.

"Bu təlimlərin keçirilməsi müharibəyə hazırlıqdır". **Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, politoloq Rasim Musabəyov bu təlimləri modern.az-a şərh edərkən deyib.**



**Deputat bildirib ki, düşmən işğal etdiyi Azərbaycan torpaqlarından geriyə çəkilmək istəmirsə, biz ordumuzu çox yüksək səviyyədə saxlamalıyıq:** "Bunun üçün də vaxtaşırı olaraq təlimlər keçirilməlidir. Ordu kazarmada oturmaq üçün deyil. Ordu təlimlər və vuruşmaq üçündür".

**Rasim Musabəyov deyib ki, biz müharibə şəraitində yaşayırıq və bunun üçün də təlimlərin keçirilməsi vacibdir:** "Keçən il də bu təlimlər miqyası eyni idi. Builki təlimlərəin 30 min nəfərədək şəxsi heyət, 250-dən artıq tank və zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 25 ədəd müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunub. Bu təlimlərin keçirilməsi müharibəyə hazırlıqdır. Biz həmişə demişik ki, torpaqlarımız sülh yolu ilə azad olunmasa, ordumuzun gücü vasitəsilə torpaqlarımızı geri qaytaracağıq. Ordumuz torpaqlarımızı düşməndən azad etmək üçün həmişə hazır olmalıdır".





# Xanım jurnalisti döyən icra başçısı məhkəməyə verilir

## Fotomüxbirə kamera qarşısında zor tətbiq edən İbrahim Mehdiyevin hərəkəti ölkəmizi qınaq obyektinə çevirir; **Elçin Şıxlı:** "Yuxarı dairələr onu işindən azad etməli idilər"

**Yasamalın icra başçısı İbrahim Mehdiyevin xanım jurnalist Fərqanə Novruzovanı vurması son günlərin əsas müzakirə edilən məsələlərindən biri oldu. Peşə fəaliyyətini yerinə yetirərkən - "Sovetski"dəki məscidin sökülməsi ilə bağlı suallarını ünvanlayarkən xanım jurnalistin kamerasını itələyən, onu sillə ilə vuran (bu səhnələr videokameraya açıq-aydın düşüb) icra başçısı bir anda "qəhrəman"a çevrilib, mətbuat və sosial şəbəkələrdə sərt qınaqlarla üzləşib.**





Ölkənin hüquq müdafiə və jurnalist təşkilatları F.Novruzovanı müdafiə etməklə yanaşı, icra başçısının qanunsuzluğu ilə bağlı tədbirlər görülməsini, onun cəzalandırılmasını tələb edirlər.

**Artıq bu gün İ.Mehdiyevlə bağlı Yasamal Rayon Prokurorluğuna müraciət ediləcək. Bununla bağlı "Yeni Müsavat"a açıqlamasında döyülən xanım jurnalistin özü məlumat verdi:** "Şikayətim aprelin 18-də disklə bir yerdə Yasamal prokurorluğuna göndəriləcək. Müstəqil hüquqşünaslardan köməyini təklif edən çox oldu, ictimaiyyət nümayəndələri, həmkarlar dəstək olduqlarını bildirdilər".

**Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı icra başçısının medianı bu şəkildə aşağılaması ilə bağlı bunları dedi:** "İcra başçısı qarşısındakı jurnalisti zəhlətökən şəxs kimi görür, onu itələyir. Bu yolla özündən uzaqlaşdırır. Əslində bu hərəkətinə görə icra başçısı məhkəməyə verilməli, yuxarı dairələr onu işindən azad etməli idilər. Əgər vəzifəli şəxs-icra başçısı vətəndaş jurnalistə əl qaldırırsa, o zaman sıravi şəxsdən nə gözləmək olar? Şəxsi mövqeyim belədir. Bizdə həmrəylik deyilən şey yoxdur. Bunu 20 ildir deyirəm. Jurnalist təşkilatlarında və jurnalistlərdə də həmrəylik yoxdur. Bu baxımdan, heç kimin bu məsələdə həmrəy olub, birlikdə addım atacağına inanmıram. Atmaq istəyən olacaqsa, mən onların yanında olaram".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu icra başçısının qanunsuz hərəkətlərinə görə cəzalandırılmasını tələb etdi:** "İcra başçısının sillə vurduğu jurnalistdən xahiş edirəm ki, onu versin məhkəməyə, biz də hüquq müdafiəçiləri olaraq, məhkəmədə çıxış edək və həmin jurnalisti müdafiə edək. Nəinki jurnalist, sadə bir insan əgər sual verirsə, ona cavab vermək məmurun vəzifə borcudur. O, vəzifədə niyə təmsil olunur? Prezidentin bunun haqqında qərarı var idi ki, hər bir məmur istənilən insanın sualına cavab verməlidir, o ki qaldı jurnalist. İcra başçısının bu hərəkətinə başqa cür haqq qazandırmaq olmur və o cəzalandırılmalıdır. Əgər xanım istəyir ki, şəxsinə olan bu özbaşınalığı sona qədər aparsın, o zaman versin məhkəməyə. Yanında şahidləri də var, videoçəkilişlər də. Həm haqqını qoruya bilər, həm də icra başçısının üzr istəməsini tələb edə bilər".

Qeyd edək ki, hadisənin baş verdiyi ilk günlərdə İ.Mehdiyev məsələyə münasibət bildirib, jurnalistin onu bezdirdiyini desə də, ona əl qaldırmağını təkzib edib. Lakin hadisə yerindən çəkilən videoçəkilişdə icra başçısının jurnalistin kamerasını geri itələdiyi və onun başına sillə ilə vurduğu açıq şəkildə görünür. Bu, yaddaşlarda olan ilk hadisədir ki, icra başçısı jurnalisti küçənin ortasında sillə ilə vurur. Bu, ölkənin imicinə ciddi xələl gətirən faktdır. Hətta erməni saytları da bundan Azərbaycan dövlətinə qarşı istifadə etməyə başlayıblar.

❑ **Cavanşir ABBASLI**

# Hakimiyyətlərlə savaşa-savaşa böyüyən şairlər...



**Hüseynbala SƏLİMOV**

**Əslində bu yazı bir neçə gün əvvəl yazılmalı idi, çünki Rusiyanın ən sonuncu böyük şairlərindən Y.Yevtuşenko ötən həftə torpağa tapşırıldı. Di gəl, yazının da "dəmi" gəlməlidir. Bəzən elə olur, ha çalışırsan ki, istədiyin yazını yazasan, amma alınmır ki, alınmır...**

Yevtuşenkonun təqdimata ehtiyacı yoxdur, tanıyanlar tanıyır, tanımayanların isə bundan sonra onu tanımasına heç bir ehtiyac və ya zərurət yoxdur...

Əslində bu adamla bağlı məni ədəbiyyatdan tamam fərqli şeylər düşündürür. Elə onun vəfatı da məndə digərlərinin diqqətini elə də özünə çəkməyən duyğular oyatdı.

Bəli, Rusiyanın sonuncu böyük şairi vətənində deyil, ABŞ-da vəfat etdi. Düşünürəm ki, bu da müəyyən qədər siyasi nəticələr çıxarmağa imkan verən detaldır. Rusiyada ABŞ-a və ya Qərbə qarşı neqativ münasibətin üstünlük təşkil etdiyi məqamda bir daha deyirəm ki, Rusiyanın sonuncu şairi ABŞ-da vəfat etdi. Yevtuşenko artıq çoxdan idi ki, yaşamaq üçün bu ölkəni seçmişdi...

Amma gəl ki, nə dəfndə iştirak edən adi insanlar, nə də sanballı ədəbiyyat və mədəniyyət simaları bunun fərqinə varmadılar. Olsun. Biz də məsələnin üstündə çox dayanmayacağıq, çünki Rusiya onsuz da olduqca təzadlı ölkədir və təsadüfi deyil ki, rusların daha bir böyük şairi hələ iki yüz il bundan əvvəl ölkəsini belə səciyyələndirmişdi: "ağılla dərk olunmayan və arşınla ölçülməyən"...

Həm də bir az əvvəldə bəhs etdiyim detal haqqında düşünərkən Rusiyanın daha bir böyük şairinin - M.Lermontovun misraları yada düşür: "Əlvida, çirkli Rusiya! Ağaların və qulların ölkəsi..."...

Nə isə... Qayıdım ən əsas mətləbə. Əgər fikir verdinizsə, mən Y.Yevtuşenko haqqında bir neçə dəfə "Rusiyanın sonuncu böyük şairi" ifadəsini işlətdim. Bu, bəlkə də mübahisəli görünə bilər. Deyə bilərlər ki, əcəba, nə olub, rusların daha şairi yoxdurmu və yaxud da olmayacaqmı? Yox, var və sonra da olacaq. Hətta ola bilsin ki, onlar Y.Yevtuşenkodan talantlıdırlar və yaxud da ki, olacaqlar...

Amma "böyük şair" ifadəsi həmişə bir qədər fərqli məzmun kəsb edibdir. Rusların bir deyimi vardır, amma mən onu öz dilimizə çevirə bilmirəm. Ona görə də elə rusca verəcəm həmin cümləni: "Poet v Rossii bolşe çem poet...". Bax, "böyük şair" ifadəsini bu anlamda işlədirəm...

Bu mənada Y.Yevtuşenko sonuncu şair idi. Ona görə ki, illərin prizmasından baxanda görürsən ki, şairlər despotik hakimiyyətlərlə, mürtəce rejimlərlə, müstəbidlərlə savaşa-savaş böyüyüblər. A.Puşkinlə bağlı məşhur və çoxunun bildiyi detal var. Deyilənə görə, A.Puşkin çarın "Qiyam günü şəhərdə olsaydınız kiminlə olardınız?" sualına belə cavab veribmiş: "Dostlarımla..."...

Mənə həmişə elə gəlib, bu bircə kəlmə A.Puşkini insanların gözündə heç onun yaradıcılığından az ucaltmır...

Bax, "böyük şair" deyəndə bunu nəzərdə tuturdum. Məhz buna görə bəzi ölkələrdə şairlərə dövlət və siyasət adamlarından daha çox heykəl qoyulur...

Məhz buna görə insanlar böyük şairlərin timsalında dövrün vicdanını görüblər. Amma çoxlu başqa şairlər olub ki, ədəbi istedadı böyük olub, gəl, insan və şəxsiyyət kimi kiçik olublar...

Məni sırf yaradıcılıq - ədəbiyyat meyarları ilə ictimai meyarları qarışdırmaqda qınaya bilərlər, deyərlər ki, ədəbiyyat bir şeydir, həyat və ictimai mövqe isə tamam başqa...

Amma mən belə düşünmürəm. Fikrimi bir az da izah edim. Məsələn, demokratik ABŞ-da sırf ədəbiyyat nəzərindən çox istedadlı şair və yazıçılar olub. Amma onlar haqqında çox az adam böyük şair kəlməsini işlədir. Bir daha deyirəm ki, akademik ədəbiyyat baxımından bəlkə də o adamlar böyükdür, amma "böyük şair" və yaxud "böyük yazıçı" deyillər, bir azacıq da aydın olsun deyə xatırladım ki, J.P.Sartra "Avropanın vicdanı" deyirdilər. Məhz bunu nəzərdə tutaraq "böyük şair" kəlməsini işlədirdim...

Özümüzdən götürək. Azərbaycanda da çox istedadlı yazarlar vardır, amma Ə.Cavad və yaxud da A.İldırım yoxdur. Düzdür, hələ bütün şanslar əldən verilməyib, ədəbi istedadların böyük ictimai fenomenə, böyük ictimai fiqura çevrilmək şansı vardır. Bizim ölkədə ilk şans istiqlalın əldə edilməsi zamanı oldu. Daha bir şans var - bu da AZADLIQ nəğməkarı olmaqdır...

# “Azərbaycan fövqəladə vəziyyətlərdə həmişə bizə dəstək olub”

İran səfirliyinin sözçüsü Azərbaycan vilayətlərindəki fəlakətlə bağlı “Yeni Müsavat”a danışdı; **Məmmədrza Nəcəfi:** “İranın kifayət qədər imkanları var, çox minnətdarıq”

**İranın Azərbaycan vilayətlərində baş verən dəhşətli sel fəlakəti Azərbaycan Respublikasında da üzüntü ilə qarşılanıb. Azərbaycan türklərinin həlak olduğu, itkin düşdüyü, maddi zərər çəkdiyi bu fəlakətlə əlaqədar humanitar yardım göstərilməsi təşəbbüsü ilə çıxış edənlər, qardaşlarımızın yanında olmağımızı təklif edənlər də az deyil. Ancaq bu da var ki, belə məsələlər dövlətlər arasındakı razılaşma və ya müraciət əsasında reallaşır. İranın Azərbaycandakı səfirliyinin mətbuat xidmətinin rəhbəri Məmmədrza Nəcəfi ilə müsahibəmizdə bu barədə də danışdıq.**

***- Məmmədrza bəy, İranda baş verən təbii fəlakət qurbanları ilə əlaqədar sizə dərin hüznlə başsağlığı veririk. Faciə ilə əlaqədar səfirliyə müraciətlər, ziyarətlər olurmu? Səfirlikdə xatirə kitabı açılıbmı?***

- Çox sağ olun, Allah sizlərdən razı olsun. Bu faciə ilə əlaqədar çoxları zəng edib, başsağlığı veriblər, sağ olsunlar. Biz bu yaxınlarda eks-prezidentimiz Ağaye-Rəfsəncani üçün xatirə kitabı açmışdıq. Amma İranda təbii fəlakətlər çox olur. Bu hadisə bizim ali rəhbərimizi də çox narahat edib və bizim azərbaycanlı dostlara başsağlığı verdi. Təbii fəlakətlər çox olduğu üçün səfirlikdə xatirə kitabı açmadıq. Ancaq dövlət səviyyəsində zəruri işlər görülür.

***- Lakin sel-daşqınlardan əziyyət çəkənlər, yaxınlarını itirən azərbaycanlılar lazımi işlərin görülməməsindən, hökumətin laqeydliyindən şikayətlənir. Bu barədə nə deyə bilərsiniz? İran hökuməti insanları bu acınacaqlı vəziyyətdən xilas etmək üçün hansı işləri görür?***

- Siz yaxşı araşdırsanız, görərsiniz ki, İran təbii hadisələrdə, fövqəladə hallarda çox güclü bir dövlət olduğunu isbat edib. Ancaq bu hadisə elədir ki, 1-2 saat ərzində sel gəlir, adamları aparır, sonra onların axtarışı, tapılması üçün məlumatlar verilməlidir. Lazımi işlərlə bizim ordu və digər orqanlar məşğuldur. Çox dövlətlər bu kimi hadisələrin qabağında dura bilməzlər. Amma İran bu sahədə də güclü dövlət olduğunu təsdiqləyib. Təbii ki, o hadisələrdə ailələrini, yaxınlarını itirən adamlar istəyir ki, sel aparan şəxsləri tez tapsınlar. Ancaq mənim bildiyimə görə, baş verən hadisəyə ali səviyyədə reaksiyalar olub. Bizim ali rəhbərimiz göstərişlər verib, işlər görülür. Yəqin ki, həm vətəndaşlar, həm də dövlət səviyyəsində lazımi işlər görülür.

***- Əgər işlər görülürsə, onda İran parlamentində hökumətə ünvanlı etirazları necə başa düşək? Hər halda, azərbaycanlı millət vəkilləri də xilasetmə tədbirlərindən razı qalmadıqlarını dedilər.***

- Bununla bağlı bir deputat danışıb. Gərək o, öz məntəqəsində lazım olan işləri görsün, özü görsənsin. Zəruri işlər görülür. Bilmək lazımdır ki, 30 təbii fəlakət varsa, onun 27-si İranda baş verir. Belə olan təqdirdə dövlətin gördüyü işlərdən narazılıqların olması mümkündür. Millət vəkilinin də vəzifəsidir ki, bu barədə fikirlərini səsləndirsin.

***- Təbii fəlakət əsasən Azərbaycan vilayətlərini əhatə etdiyi üçün həlak olanlar da azərbaycanlılardır...***

- İran deyək. İranın Azərbaycan bölgəsi həmişə inqilaba dayaq olub və bizim böyük adamlarımız ordandır. Bunlar böyük din alimlərimiz Əllamə Təbatəbai, Əllamə Ərdəbili, Ayətullah Ərdəbili, Ayətullah Xameneidir. Yəni işlər görülür, yəqin ki, İran 1-2 günə bütün işləri başa çatdıracaq.

***- Təbii fəlakətin qurbanları barədə dəqiq rəqəm varmı?***

- 40-dan çox adam həlak olub.

***- Azərbaycanda təkliflər səslənir və hesab olunur ki, fəlakətdən zərər çəkənlərə humanitar yardım göstərilməsi yaxşı olardı. Ancaq bunun üçün dövlətin müraciəti lazımdır. İran dövləti Türkiyə və Azərbaycandan qardaş yardımı gözləyirmi?***



**“Biz istəyirik gəliş-gediş çox olsun”**

- Axı bu, elə böyük bir iş deyil ki. Sel 2-3 saatlıq olub, keçib, gedib.

***- İran böyük dövlətdir. Amma dünyada yardımlaşma ənənəsi var. Üstəlik, insanlara ciddi ziyan dəyib...***

- İranın kifayət qədər imkanları var, çox minnətdarıq. Azərbaycan Respublikası zəlzələ baş verəndə də, digər fövqəladə vəziyyətlərdə də həmişə bizə dəstək olub. Bütün adamlar bir candandır və biz Adəm övladıyıq. İran və Azərbaycan bütün sahələrdə bir-birinə dəstək olub, olacaqlar da.

***- Belə başa düşdüm ki, Tehran yardım üçün Bakıya müraciət etmək niyyətində deyil, eləmi?***

- Yox. Həm ordakı insanların özləri çox qeyrətli camaatdır, həm də İran dövləti çox güclüdür. Orada vəziyyət elə deyil ki, texniki, ya başqa problemlər olsun. 2-3 saatlıq sel gəlib, bitib.

***- Amma internetdə kadrlara baxdıq, sadə camaat hökumətdən şikayətlənir, hətta palçığın içərisində qalmış meyitləri öz güclərinə çıxarırdılar...***

- Siz gərək bunu nəzərə alasınız ki, hansısa hadisə baş veribsə, gərək telefon əlaqələri yaradılsın, yaxud lazımdırsa, helikopter gəlsin. Hesab edirəm ki, artıq bu məsələlər bitib.

***- Yeri gəlmişkən, İranda prezident seçkilərinin gərgin vaxtıdır. Siz hansı nəticəni gözləyirsiniz?***

- Bilirsiniz ki, keçmiş prezidentimiz Həsən Ruhani çox demokratik seçkilər nəticəsində qalib gəlmişdi. Bu dəfə də çoxsaylı namizədlər var, inşallah, yenə də demokratik nəticələr olacaq. Seçkilərə də maraq çox böyükdür.

***- Siz özünüz hansı bölgədənsiniz?***

- Mən Gilan ostandarlığındanam. Elə astaralıyam. Gilanın mərkəzi də Rəştdir. Bu tərəfdən, Astara keçidindən keçirsən, mən də o tərəfki Astaradanam.

***- Dəmir yolu açılandan sonra gediş-gəliş daha asan və rahat olar...***

- İnşallah!

***- Bu yaxınlarda İrandan Azərbaycana viza ilə bağlı istəklər oldu...***

- İnşallah! Biz istəyirik gəliş-gediş çox olsun. Dövlətlərin əlaqələri strateji səviyyədədir, gərək xalqın da əlaqələri möhkəm olsun, insanlar rahat gedib-gəlsinlər.

❑ **Elşad PAŞASOY**

# Britaniya kəşfiyyatı İrandakı seçkilərə barmaq uzadır-şok iddialar

**Elxan Şahinoğlu:** “Vaşinqton və London Mahmud Əhmədinejadın bir daha prezident kürsüsünə qayıtmasını istəmir”

**İranda keçiriləcək prezident seçkilərinə bir aya yaxın müddət qalır. 2005-2013-cü illərdə ölkəyə rəhbərlik etmiş Mahmud Əhmədinejadın namizəd kimi qeydə alınması seçki marafonunu qızışdırıb.**

Sabiq prezidentin yenidən iddiaçı olmasına mövqelər heç də birmənalı deyil. Prezidentliyi dönəmində Qərblə münasibətləri kəskin şəkildə pisləşdirən və hətta müharibə təhlükəsinə qədər aparan M.Əhmədinejadın namizədliyinə Avropadan reaksiyalar gəlməyə başlayıb. Artıq Qərb dairələrinin onun namizədliyinin qeydə alınmasından sonra hərəkətə keçdiyini də demək mümkündür. Belə ki, Britaniya kəşfiyyatı - MI6 və Birləşmiş Ştatlar İran seçkiləri ilə bağlı fəaliyyətə başladıqları və hətta MI6-nin seçkilərin nəticələrinə barmaq uzatması ilə bağlı xəbərlər dünya mediasında dolaşmağa başlayıb. Strateq.az-ın məlumatına görə, mühafizəkar “Raja News” portalının baş redaktoru Əli Nadiri Əhmədinejadın qeydiyyatını twitter-də “Britaniya kəşfiyyatının 2017-ci il seçkilərindəki mürəkkəb siyasi oyunlarının ünsürlərindən biri” adlandırıb.

Bu bəyanatın əsası var. ABŞ İslam respublikasında ictimai asayişi pozmaq niyyətləri haqda artıq birbaşa siqnallar verir. Donald Trampın seçkiqabağı kampaniya zamanı xarici siyasət üzrə müşaviri Valid Fares mənzil qərargahı Londonda qərarlaşmış “Asharq al-Awsat” beynəlxalq ərəb qəzetinə müsahibədə Ağ Evin planlarından xəbər verib. O bildirib: **“ABŞ İranın ərəb dünyasındakı ekspansiyasını tezliklə dayandıracaq. Ümid etməyə əsas var ki, müxalifət İranda 2009-cu ildəkindən daha geniş etiraz aksiyaları təşkil edəcək”.**



**Politoloq Elxan Şahinoğlu** Böyük Britaniyanın İrandakı seçkilərdə barmağının olacağını istisna etmir: “Böyük Britaniyanın İranda daima maraqları olub və indi də var. Böyük Britaniyanın və dünyanın ən böyük neft şirkətlərindən biri sayılan BP-nin yaranış tarixi də İrandan başlayır. Ona görə istisna etmirəm ki, Londonun İrandakı prezident seçkisində hər hansı marağı olsun. Qərb, o cümlədən London İrandakı seçkidə mühafizəkarların qələbəsində maraqlı deyil. Bu qələbədənsə Həsən Ruhaninin ikinci müddətə prezident seçilməsində maraqlıdırlar. Çünki məhz Həsən Ruhaninin dövründə nüvə anlaşması imzalandı, beynəlxalq aləm gərgin tələtümdən qurtardı. 6-7 il əvvəl gündəmin əsas narahatedici mövzusu Suriya deyildi, İran və bu ölkənin nüvə proqramı idi. ABŞ və İsrailin İrana qarşı hərbi əməliyyata başlaya biləcəyi müzakirə predmeti idi. Bu mövzuya yalnız Həsən Ruhaninin prezident seçilməsi ilə son qoyuldu. Çünki keçmiş prezident Mahmud Əhmədinejaddan fərqli olaraq Həsən Ruhani Amerika ilə ümumi dil tapa bildi. Ona görə də Qərb dünyası, o cümlədən Vaşinqton və London Mahmud Əhmədinejadın bir daha prezident kürsüsünə qayıtmasını istəmirlər. Onun yenidən prezident seçilməsi İranın yenidən nüvə çalışmalarına başlaması təhlükəsi yaradacaq. Bu isə Qərb dünyası üçün növbəti başağrısı deməkdir. Ona görə də Qərb əlindən gələni edəcək ki, İranda Əhmədinejad və ya onun kimi düşünən birisi prezident seçilməsin”.

**Politoloq dedi ki, İranda prezident seçkilərində sürprizlər az olmayıb:** “İranda müstəqil rəy sorğuları keçirilmədiyinə görə kimin prezident seçiləcəyini proqnozlaşdırmaq çətindir. Məsələn, 1990-cı illərin sonlarında parlamentin keçmiş sədri Natiq Nuri ilə keçmiş mədəniyyət naziri Məhəmməd Xatəmi arasında mübarizə gedirdi. Çoxları deyirdi ki, Natiq Nuri prezident seçiləcək. Ancaq nəticə fərqli oldu, çoxlarının gözləmədiyi halda Məhəmməd Xatəmi prezident seçildi və ikinci seçkidə də kürsüsünü qorudu. Bu mənada may ayındakı seçkidə də prezidentin kim olacağını proqnozlaşdırmaq çətindir. Belə fikirlər var ki, İran əhalisi islahatların dərinləşməsini istəyir, əhalinin əksər hissəsi də gəncdir və onlar yenilikdə maraqlıdırlar. Yəni bu məntiqdən çıxış edərək Həsən Ruhaninin öz kürsüsünü qoruyacağı proqnozlaşdırılır. Ancaq yenə də keçmiş illərdə olduğu kimi, bu proqnoz da səhv çıxa bilər. İranda qərarı iki əsas mərkəz - ali dini lider və İslam Keşikçilərinin generalları verirlər. Onların istəyi xaricində kimsənin prezident seçilməsi çətindir. Bu iki qüvvə mühafizəkar olsa da, bəzən prezident kürsüsünü şərti adı liberallar olan kəsimin namizədinə peşkəş edirlər. Çünki bilirlər ki, prezident hər istədiyini həyata keçirə bilməz, dini liderin cizdiği ”qırmızı cizgini” aşa bilməz. Mühafizəkar mərkəzlər islahatçı düşüncəli siyasətçinin prezident seçilməsinə ona görə mane olmurlar ki, Qərblə əməkdaşlığı davam etdirə bilsinlər və sanksiyaların yumşalmasına nail olsunlar”.

**E.Şahinoğlu Azərbaycan üçün hansı tipli şəxsin İran prezidenti seçilməsinin vacibliyindən də söz açdı:** “Qərb kimi Azərbaycan da İranda şərti adı islahatçı olan kəsimin nümayəndəsinin prezident seçilməsini istəyir. Məsələn, elə indiki prezident Həsən Ruhaninin vəzifəsinə davam etməsi rəsmi Bakının maraqlarına cavab verir. Təəssüf ki, Tehran Ermənistan siyasətini dəyişdirmir, əvvəlki tək işğalçı dövlətlə əlaqələrinə davam edirlər və bu amil haqlı olaraq Azərbaycan cəmiyyətində narazılıq doğurur. Ancaq bu siyasəti dəyişmək İran prezidentinin əlində deyil. Bu siyasətin dəyişməsi üçün də ali dini liderin xeyir-duası lazımdır. Bu siyasətin dəyişməsi üçün biz də fəal olmalıyıq. Məsələn, İranda yaşayan azərbaycanlılarla dialoq genişləndirmək, qonşu dövlətlə vizanı ortadan qaldırmaq lazımdır. Elə etmək lazımdır ki, İranla Azərbaycan arasında iqtisadi-ticarət münasibətləri, regional layihələrin sayı daha çox olsun ki, son nəticədə bu, Tehranın Ermənistanla bağlı xarici siyasətinə də təsir etsin. Məsələn, İran-Azərbaycan hökumətlərarası komissiyasının İrandan olan həmsədri Mahmud Vaezinin fəaliyyətini müsbət qiymətləndirirəm. Onun prezident Həsən Ruhaninin yanında nüfuzu böyükdür. Bu imkandan da istifadə etmək lazımdır”.

❑ **Cavanşir ABBASLI**

# ABŞ prezidentinin Bakıdakı “ortaqları” gülünc durumda...




# Ziya Məmmədovun qürubunun şok sirləri - həbs...

## İqtidarda etibarını itirən sabiq nazir və oğlunun Trampla bağlı yanlış piarı onların sonunu tezləşdirdi; amma hakimiyyətin onlarla yollarını birdəfəlik ayırmasının başqa səbəbləri də var; oğlu niyə üzə çıxmır?

**Fevral ayının 13-də prezident İlham Əliyevin sərəncamı ilə ləğv edilən Nəqliyyat Nazirliyinin sabiq rəhbəri Ziya Məmmədov mediaya “daha sıravi vətəndaşam”, “dincəlirəm” kimi açıqlamalar verdikdən sonra bir müddətdir ki, səs-səmiri çıxmır. İşdən azad olunduqdan sonra guya yenidən hansısa vəzifələrə təyin ediləcəyi barədə Məmmədovların mediaya sızdırdıqları xəbərlər də təsdiqlənmədi.**

Əksinə, indi gələn xəbərlərdən məlum olur ki, Məmmədovlar hakimiyyətdəki etimadlarını birdəfəlik itiriblər, illərdi topladıqları sərvətləri, hətta “topdağıtmaz” “Garant” Holdinqi belə itirmək təhlükəsi ilə üzləşiblər.

Məlumdur ki, Z.Məmmədovun oğlu Anar Məmmədov rəhbərlik etdiyi “Garant” Holdinq “PAŞA Bank” ASC-dən götürdüyü 1 milyon 141 min manat borca görə məhkəməyə çəkilib; oğul Məmmədovun bir neçə əmlakına, o cümlədən “Milyonerlər məhəlləsi” kimi tanınan Məmməd Araz küçəsindəki mülklərinə həbs qoyulmuşdu. Sabiq nazir “bu işdən xəbərsizəm” desə də, mülklərə həbs xəbərləri təsdiqləndi. O da məlum oldu ki, hazırda Londonda yaşayan və Bakıya hansısa səbəblərdən gələ bilməyən A.Məmmədov banka borcu ödəyib.

Əlbəttə ki, 15 il nazir işləmiş Z.Məmmədov və vaxtilə hüdudsuz imkanlara malik oğlu A.Məmmədov üçün 1 milyon “tum pulu” hesab oluna bilər. Təsadüfi deyil ki, Bakıdakı işlərini buraxan A.Məmmədovun Londonda dəyəri milyonlarla dollar olan mənzil alması barədə xəbərlər hələ Z.Məmmədov vəzifədə işləyərkən yayılmışdı.

Tanınmış hüquqşünaslardan biri iddia edirdi ki, Londonun mərkəzində tikilmiş çox bahalı “One Hyde Park” yaşayış kompleksində mənzil sahiblərindən biri də A.Məmmədovdur. Təxminən 1.7 milyard dollara başa gələn dünyaca məşhur dəbdəbəli kompleksdə isə mənzillərin kvadrat metri 100 min dollardan başlayır...

Amma yeni xəbərlər o istiqamətdədir ki, Məmmədovlar ölkədən çıxmaq və ya kredit götürdükləri pulu qaytarmaqla qurtulmuş hesab oluna bilməzlər. Xəbərlər var ki, Məmmədovlar hələ 3 il əvvəldən açılışı olmalı Heydər Əliyev Mərkəzi yaxınlığındakı “yelkən-hotel”i belə itirmək ərəfəsindədirlər.

A.Məmmədovun hakimiyyətin gözündən düşməsi məlum idi, onun ABŞ-dakı lobbi təşkilatında (Amerika-Azərbaycan Alyansı) külli miqdarda maliyyə maxinasiyasına yol verdiyini Amerika qəzetləri də yazmışdı. Bakıda Azərbaycan Qolf Federasiyası prezidentliyindən uzaqlaşdırılan A.Məmmədov Donald Trampın prezident seçilməsi ilə “dirçəldi”.

O, mediada Trampla yaxınlığı barədə piar-kampaniyaya start verdi. Belə rəy yaradıldı ki, Məmmədovlarsız Amerikanın yeni administrasiyası ilə əməkdaşlıq mümkün olmayacaq. Bu təbliğata hələ o vaxt nazir işləyən Z.Məmmədov da şəxsən qoşuldu, “Trampla işbirliyimiz var” dedi.

Amma bu yanlış piar Məmmədovların sonunu tezləşdirdi, hakimiyyət onlara “boy göstərən” Məmmədovlarla yollarını birdəfəlik ayırmağa qərar verdi.

Məlumata görə, Z.Məmmədov hakimiyyətə qarşı “qeyri-səmimi” mövqeyinə görə də cəzalandırıla bilər. Məsələn, onun “vurulmasında” baş nazirin keçmiş birinci müavini, Azərbaycan iqtidarına xəyanət etmiş Abbas Abbasovla əlaqəsi də ciddi rol oynadığı deyilir. Bildirilir ki, A.Abbasov hakimiyyətlə körpüləri yandırsa da, Z.Məmmədovla müəmmalı təmasları son aylaradək davam edirmiş. Onların telefon əlaqəsi deşifrə olunduqdan sonra Z.Məmmədov bu təmasların səbəblərini izah edə bilməyibmiş. Xatırladaq ki, son aylar A.Abbasovun yenidən fəallaşması və Bakıya qarşı Kremlin daha bir planında yer alması xəbərləri yayılıb.

Fəqət bu da son deyil. İddialar var ki, Məmmədovların həbs təhlükəsi də realdır. Buna səbəb isə amerikalı senatorların “Trump Organization” təşkilatının Azərbaycanda Məmmədovlarla işbirliyinin şübhəli məqamları barədə araşdırma tələb etməsidir.

ABŞ mətbuatında da ötən ay bu haqda yazılar dərc olunub. Təfərrüata varmadan qeyd edək ki, yazıda Məmmədovlara o qədər ciddi ittiham var ki, bunları hakimiyyət araşdırarsa, onların qapıları uzun müddətə arxadan bağlanmış olar...

Etibarlı mənbənin bir xəbərinə görə isə Məmmədovlar Azərbaycandakı bütün əmlaklarını - hotellərdən tutmuş restoranlaradək satmaq niyyətindədirlər. “Onlar indən sonra Azərbaycanda bizneslərinin davam etdirilməsinin mümkünsüzlüyünü anlayıblar” deyə, mənbə bildirib. Sabiq nazirin varidatı ilə bağlı bu illər ərzində çox faktlar açıqlanıb. Nazir vəzifədən çıxarılmazdan əvvəl də onun ən sərt tənqidçilərindən olan partiya sədri Hafiz Hacıyev Z.Məmmədovun Bakıda və Bakı ətrafında 2 milyarda yaxın dəyəri olan daşınmaz əmlakı olduğunu iddia edir. Maraqlıdır ki, Məmmədovlar nəslinin digər nümayəndələrinə xüsusi bir qərəzli münasibət yoxdur, onlar öz həyatlarını və biznes fəaliyyətlərini davam etdirirlər...

**Z.Məmmədov ilginc xəbərlərlə bağlı telefon zənglərimizə cavab vermədi. Onun da mövqeyini dərc etməyə hazırıq.**

❑ “YM”

# “Məhkəməni udmuşam, bank adımı ”qara siyahı"dan çıxarmır" - sahibkar

**“Yerli tingçilik təsərrüfatının yaradılması bizim üçün əsas məqsədlərdən biridir. Bununla bağlı ölkə başçısının müvafiq fərmanı və tapşırıqları var. Lakin bu gün bizim bağlarda qocalma və seyrəlmə prosesi gedir”. “APA-Economics” xəbər verir ki, bunu “Qeyri-neft ixracatçılarının respublika müşavirəsi”ndə çıxışı zamanı “Tovuz-Baltiya” MMC-nin baş direktoru Naib Məmmədhəsənov bildirib.**

Onun sözlərinə görə, bu gün şərabçılığın inkişafı baxımından texniki üzüm sortlarının yetişdirilməsi olduqca vacibdir. “Ən vacib məsələlərdən biri də köməkçi materiallara olan tələbatın daxili bazar hesabına ödənilməsidir. Cənab prezidentin də qeyd etdiyi kimi, valyuta axınının qarşısını almaq üçün zavod və fabriklərimizin imkanları artırılmalıdır. Azərbaycanda ”İnterGlass" adlı zavod var və həmin zavod Qafqazın şüşəyə olan tələbatını tam ödəyə bilər. Oradakı avadanlıqların hamısı İtaliyadan gətirilib və dövlət bu zavoda iri investisiya qoyub. Biz bu gün bəzi məhsulları Fransadan idxal edirik. Niyə bizim valyutamız xaricə axmalıdır? Biz niyə logistikaya əlavə vəsait verməliyik? Biz bu gün qiymətlə bağlı rəqabətə tab gətirmirik. Bu gün biz məcburiyyətdən Moldova, Gürcüstan kimi kiçik ölkələrdən məhsul alırıq. Bizim yaxşı şərabçılıq məhsullarımız var. Lakin köməkçi materialların çatışmazlığı, onların idxalı ucbatından xaricə məhsul ixrac edə bilmirik. Buna görə mən ”İnterGlass" zavodunun tam gücü ilə işləməsi üçün xahiş edirəm ki, aidiyyəti qurumlar bir tədbir görsün. Bu problem həllini taparsa, biz idxaldan azad olarıq", - deyə o bildirib.

**Şirkət rəhbəri bankların əməllərindən də gileylənib:** “Bu gün biz overdraftlarımızdan, akkreditivlərimizdən istifadə edə bilmirik. Bu gün logistika, köməkçi materiallar necə vacibdirsə, hər şeyin mərkəzində dayanan maliyyə-bank sistemi də bir o qədər vacibdir. Məsələn, mənim bu gün bank hesabımda 50 min avro oturub, mənə 20 min manat verin ki, elektrik enerjisinin pulunu köçürüm. Mənə o vəsaiti vermirlər. Deyirlər ki, mənim adım hansısa bankın ”qara siyahısı"ndadır. Halbuki mən həmin bankla məhkəmə çəkişməsini udmuşam, əlimdə qətnamə də var. Amma adımı “qara siyahı”dan çıxaran yoxdur! Belə çıxır ki, bu cür məsələləri araşdıran yoxdur".

# Təəccüblü təəssübkeşlik



Xalid KAZIMLI

**Dünyanın harasında olursa-olsun, siyasi arenada demokratlarla despotizmin qarşıdurması, toqquşması baş verirsə, təkcə bizim ölkənin ictimai-siyasi fəalları yox, bütün dünyanın aktivistləri öz səflərini müəyyən edir, tərəf tuturlar.**

Kim avtoritar idarəçilikdən yanadırsa, həmin ölkədəki avtoritar liderlərin hakimiyyətdə möhkəmlənməsini istəyir, kim demokratiya və azadlıqların təntənəsini istəyirsə, eyni dəyərləri müdafiə edənlərin tərəfini tutur.

Həmin ölkə daha yaxınlıqdadırsa, müzakirələr bir o qədər şiddətli, ehtiraslar daha artıq coşmuş olur, insanlar qonşu ölkədə gedən avtoritarizm-demokratiya çarpışmasını öz ölkələrinin daxili işləyirmiş kimi müzakirə edirlər.

Bir zamanlar (11 il öncə) İranda Mahmud Əhmədinejadla Hüseyn Musəvi arasında prezident postu uğrunda gərgin, qanlı mübarizə gedəndə ölkəmizin demokratlar kəsimi Musəviyə azarkeşlik edirdilər. Onlar üçün Əhmədinejad avtoritarizmin mücəssəməsi idi, hesab edirdilər ki, bu adamın zorakılıqla hakimiyyətdə qalmağa çalışması nə İran xalqına, nə də onun qonşularına fayda verməyəcək.

Eyni durum Rusiyada gedən seçki prosesində də müşahidə olunur. Ölkəmizin (eləcə də digər postsovet respublikalarının) demokratiya tərəfdarı olan müxalifətçiləri hər zaman Putinə qarşı olan müxalifətçilərə rəğbət bəsləyirlər. Bu da təbiidir. Çünki onlar bilirlər ki, Rusiya və onun hazırkı lideri Putin regionda demokratik dəyərlərin yayılmasının, demokratiyanın zəfərinin əleyhinədir və bacardığı qədər, əlinin çatdığı bütün ölkələrdə avtoritarizmin, despotizmin hegemon olmasına çalışır.

Gürcüstanda keçirilən seçkilərdə də bənzər durum yaranır. Demokratlar demokratlara qahmar çıxır, avtoritarizm tərəfdarları isə öz “ideya qardaşları”nın qələbəsini arzulayır.

Bugünlərdə Türkiyədə keçirilən referendum həm də “dəyərlərin toqquşması” ilə əlamətdar idi. Həm buna görə, həm də Türkiyənin doğma məkan, ikinci vətən sayılması üzündən ölkəmizdə 16 aprel referendumunun kampaniyasının gedişatını izləyənlər, nəticələri ilə maraqlananlar çox idi.

Ancaq onların arasında ötən il Azərbaycanda keçirilən bənzər referendumda tənqidçi mövqe tutanların bu dəfə fərqli mövqedə dayanması təəccüb doğurdu. O adamlar ki, Azərbaycanda avtoritarizmin güclənməsinə, bir şəxsin dövlət idarəçiliyində bütün səlahiyyətləri ələ almasına qarşıydılar, bu dəfə Türkiyədə prezidentin səlahiyyətlərinin genişlənməsinin tərəfdarı idilər.

Hətta onların bir çoxu “xeyr” tərəfdarı olanların demokratlığını şübhə altına alan fikirlər açıqlayırdılar.

Əslində isə demokratik dəyərlərə münasibətdə ikili standarta yol verilə bilməz, o, Venesuelada da, Hondurasda da, Kanadada da eyni cür qiymətləndirilməlidir.

Uzun illərin təcrübəsi göstərir ki, səlahiyyətlərin bir əldə toplanması xalqa xoşbəxtlik gətirmir. Üstəlik, dövlət idarəetməsinin düzəni pozulur, hakimiyyət qolları işləməz hala gəlir.

Məsələn, bu, ilk növbədə özünü icra hakimiyyətinin siyasi idarəetmənin zirvəsinə oturmasında, qanunverici hakimiyyətin notariat kontoru səviyyəsinə düşməsində, məhkəmə hakimiyyətinin sifarişli hökmlər verən cəzakəsmə aparatına çevrilməsində, dördüncü hakimiyyətin (medianın) boğularaq təsir gücünü itirməsində, müxalifətin siyasi sistemdən kənarda qoyulmasında göstərir.

Bəzən ABŞ-ı misal göstərərək deyirlər ki, bu ölkənin prezidentinin geniş səlahiyyətləri var və görün, hansı tərəqqidədir. Düzdür, ABŞ prezidenti geniş səlahiyyətlərə malikdir, ancaq hər halda, bu hüdudsuz deyil, onun da əl-qolunu bağlayan institutlar (Konqres, Senat, Ali Məhkəmə, Konstitusiya Məhkəməsi, müstəqil media) var. Ona görə də ABŞ prezidenti ürəyi istədiyi vaxt hansısa qanunu qəbul etdirə, ölkəni qanunların fövqündə duraraq idarə edə bilmir.

Təəssüf ki, bizə Misirdən, İraqdan, Suriyadan və başqa bu tip ölkələrdən tanış olan prezident respublikası quruluşu açıq despotizmin özü idi. Bu ölkələrin prezidentləri ürəkləri istəyən qədər hakimiyyətdə qala, təkrar-təkrar seçilə (vaxtaşırı konstitusiyanı dəyişərək) bilirdilər. Hazırda elə ölkələr çoxdur.

Ölkəmizdə demokratiya tərəfdarı olanlar istəyirlər ki, bütün dünyada haqq-ədalət qalib gəlsin, dövləti idarə edənlər sırf seçki yoluyla hakimiyyətə gəlsinlər, qanunlar çərçivəsində fəaliyyət göstərsinlər.

Konstitusiyanın tez-tez dəyişildiyi ölkələrdə nə iqtisadi inkişaf, nə firavanlıq, nə də uzunmüddətli sabitlik, təhlükəsizlik olur.

YENİ MÜSAVAT
N 80 (6694) 18 aprel 2017



# Ramiz Mehdiyevin ad gününü deputatlar necə təbrik etdilər







**Zahid Oruc:** "O, əqidəsinə və siyasi ideallarına yüksək sədaqəti ilə seçilən həqiqi dövlət adamıdır"

**Vahid Əhmədov:** "Ramiz müəllimi dövlətin onurğa sütunu hesab edirəm"

**Fazil Mustafa:** "Ramiz Mehdiyev həm təcrübəli dövlət xadimi olması, həm də akademik elmi çalışmaları ilə tanınır"

**Aprelin 17-si Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin doğum günüdür. Musavat.com hörmətli akademikin ömür yolu haqda məlumatı təqdim edir.**

Ramiz Ənvər oğlu Mehdiyev 17 aprel 1938-ci ildə Bakı şəhərində anadan olub. 1957-ci ildə Bakı Dənizçilik Məktəbini bitirdikdən sonra "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Xəzərneftdonanma" İdarəsində işləyib. 1961-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olub. 1965-ci ildə V kurs tələbəsi ikən Azərbaycan LKGİ MK-nın tələbə gənclər şöbəsində təlimatçı vəzifəsinə təyin edilib, 1967-68-ci illərdə Azərbaycan LKGİ Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi vəzifəsində çalışıb. 1968-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin aspiranturasına daxil olub. 1972-ci ilin mayında Moskva Dövlət Universitetinin Müdafiə Şurasının iclasında fəlsəfə elmləri namizədi alimlik dərəcəsini almaq üçün dissertasiyasını müdafiə edib. 1972-ci ildən Azərbaycan Dövlət Universitetinin Elmi kommunizm kafedrasında əvvəl müəllim, sonra isə baş müəllim vəzifəsində çalışıb. 1974-cü ilin mayında Azərbaycanda KP MK aparatında Təbliğat və təşviqat şöbəsində mühazirəçi vəzifəsinə irəli çəkilib. 1976-cı ilin iyununda Azərbaycan KP MK Elm və tədris müəssisələri şöbəsinin müdir müavini vəzifəsinə təsdiq olunub. 1978-ci ilin oktyabrında Azərbaycan KP 26 Bakı komissarı adına Rayon Komitəsinin birinci katibi seçilib. 1980-ci ilin iyununda Azərbaycan KP MK-nin Elm və təhsil müəssisələri şöbəsinin müdiri, 1981-ci ilin yanvarında isə Azərbaycan KP MK-nin Təşkilat-partiya işi şöbəsinin müdiri təyin edilib. 1982-ci ilin dekabrında Azərbaycan KP MK-nin katibi seçilib. 1988-ci ilin mayında MK-nin plenumunda respublika rəhbərliyinin dəyişməsi ilə əlaqədar Azərbaycan KP MK katibi vəzifəsindən azad olunub. 1988-ci ilin iyununda Azərbaycan Elmlər Akademiyasının İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunun şöbə müdiri təyin olunub. 1993-cü ildə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 1994-cü ilin fevralında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən Prezidentin İcra Aparatının şöbə müdiri vəzifəsinə, 1995-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri vəzifəsinə təyin edilib. 1980-1990-cı illərdə iki çağırış Azərbaycan Ali Sovetinin deputatı, 1995-ci ildə isə Azərbaycan Milli Məclisinin üzvü seçilib. "Qırmızı Əmək Bayrağı" ordeni və 2008-ci ildə "İstiqlal" ordeni ilə təltif edilib. 2001-ci ildə Nyu-York Elmlər Akademiyasının üzvü, 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

Azərbaycan Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyasının prezidenti, Azərbaycan Respublikasının Həqiqi Dövlət müşaviridir.

Ramiz Mehdiyevin tərcümeyi-halı onun Azərbaycan ictimai-siyasi həyatında nə dərəcədə rola malik dövlət xadimi olduğunu göstərir.

**Milli Məclisin bir sıra tanınmış deputatları Ramiz Mehdiyevin doğum günündə onun haqqında fikirlərini və təbriklərini musavat.com-a açıqlamalarında ifadə ediblər.**

**Milli Məclisin deputatı Zahid Oruc Ramiz Mehdiyevi dərin dövlət adamı adlandırıb:** "Onun şəxsiyyətini xarakterizə edən keyfiyyətlər Şərq müdrikliyi ilə Qərb soyuqqanlılığının hörmətli Ramiz müəllimin siyasi dünyagörüşündə son dərəcə dəqiqliklə vəhdət təşkil etməsindədir. Bəlkə də isti iqlim qurşaqlarında və sovetlərdən sonrakı ictimai proseslərin yüksək hərarəti fonunda Azərbaycan hakimiyyətinin yuxarı eşelonlarında təmsil olunan insanlar hiss və emosiyaları ilə deyil, rasional qərarlardan kənarda sabit dövlət quruluşlarını formalaşdıra bilməzdilər. Oturuşmuş sistemlərdə və Avropanın çoxəsrlik tarixində siz fərqli mənzərələri görə bilərsiniz. Lakin ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı zamanı millətin önündə gedən insan sabit və dayanıqlı hökuməti formalaşdırana qədər ən yaxın komanda üzvlərini qeyri-ordinar miqyasda düşünmək və çalışmaq bacarığı əsasında seçməli olmuşdu. Bir tərəfdən də Azərbaycanın siyasi patriarxı Heydər Əliyev Kremlin zirvəsindən gedəndən sonra mənsub olduğu ölkədə yaşanan xaos fonunda bir vaxtlar rəhbərlik etdiyi komanda üzvləri də zamanın özü kimi vəfasızlıq göstərmişdilər. Lakin Ramiz Mehdiyev əqidəsinə və siyasi ideallarına yüksək sədaqəti ilə seçilən həqiqi dövlət adamıdır. Məhz ona görə də birinci şəxsin ən yaxın silahdaşı və məsləkdaşı olub. İki fərqli formasiyanın ünlü simasına çevrilmək asan məsələ deyil. Lakin mürəkkəb hakimiyyət fenomenini dərindən bilmək və yüksək ideoloji-təşkilati səriştəyə malik olmaq Ramiz Mehdiyevə imkan verib ki, o, uğurla milli ideallara və mənsub olduğu kursa dönmədən xidmət eləsin. Məhz ona görə də administarsiya rəhbərini yorulmazlıq simvolu, tükənməz enerji sahibi kimi də xarakterizə etmək olar. Vaxtilə 14-cü Lüdovik deyirdi ki, mənə "dövlət adamlar" lazımdır. Diqqət etdinizsə, ifadə bir qədər siyasi leksionumuzdakı "dövlət adamı" kəlməsinə oxşayır. Lakin bu, zahiri bənzərlikdir. Əsl həqiqətdə isə fransız hökmdarı tamam ayrı xüsusiyyətləri özündə təcəssüm etdirən insanları nəzərdə tuturdu. Adamların mənəvi dünyasına nüfuz etməyi bacarmaq, ictimai ruhu və siyasi axınları bəsirət gözü ilə duymaq və mənafe savaşlarında hər zaman dövlətçilik maraqlarını uca tutmaq şəxsiyyəti tamam başqa bir varlığa çevirir. Dövlət qarşısında yüksək xidmətlərinə görə Ramiz Mehdiyev fransız hökmdarının nəzərdə tutduğu obraza tam uyğun gəlir. Aristokratlıq, dövlət ədəbi və ərkanı, liderinə sonsuz bağlılıq əyani dövlət dərsliyi hesab oluna bilər. Məhz ona görə də prezident İlham Əliyev ona yüksək qiymət verib, qədirbilənlik və etibar göstərib. Tərcümeyi-halı Azərbaycanın dövlət quruculuğuna qarışmış və fərdi ömür olmaqdan çıxmış bir insanı biz də ürəkdən təbrik edirik".

**Deputat Vahid Əhmədov da R.Mehdiyev haqda danışıb:** "Ramiz Mehdiyevi Azərbaycan SSRİ Mərkəzi Komitəsinin ideologiya üzrə katibi olduğu dövrdən tanıyıram. Ümumiyyətlə, Ramiz Mehdiyevin Azərbaycan siyasətində rolu çox böyükdür. Müstəqil Azərbaycanın həyatında Heydər Əliyevin dönəmindən indiyə qədər Ramiz müəllimin ölkə siyasətində rolu çox böyükdür. Mən açığını deyim ki, Ramiz Mehdiyevi Azərbaycan dövlətinin onurğa sütunu hesab edirəm. Bunu hər yerdə deyirəm. Çünki idarəetmə mexanizmini, dövlət strukturlarını, siyasəti mükəmməl bilən yeganə şəxslərdən biridir. Ona görə ki, Ramiz Mehdiyev Heydər Əliyev məktəbini keçib. 79 yaş az yaş deyil, amma yaşa baxmayaraq bu gün çox yüksək səviyyədə, enerji ilə çalışır. Düzdür, indi gəncləri də vəzifələrə gətiririk, amma idarəçiliyi dərindən bilən köhnə kişilərin təcrübəsi dövlət idarə edilməsində önəmli məsələdir. Ramiz Mehdiyev kimi təcrübəli, dünya görmüş adamlara həmişə Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanması üçün ehtiyac var. Mən hörmətli Ramiz Mehdiyevi doğum günü münasibətilə təbrik edirəm".

**Milli Məclisin bir başqa üzvü, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa deyib ki, Ramiz Mehdiyev həm təcrübəli dövlət xadimi, həm də akademik elmi çalışmaları ilə tanınan, müəyyən dərəcədə dövlətin ideoloji kursunu müəyyənləşdirən konseptual əsərlərin müəllifi olan ictimai-siyasi xadimdir:** "Bu iki mühüm keyfiyyəti özündə birləşdirməyi Azərbaycan dövlətinin həm daxili, həm xarici siyasətinə ciddi təsir edəyən bir amildir. Ramiz Mehdiyev bir dövlət xadimi kimi Azərbaycanı həm ideoloji platformada, həm də beynəlxalq arenada müəyyən fikirləri ilə təmsil edir. Hesab edirəm ki, Azərbaycanda bu keyfiyyətdə dövlət xadimlərinin olması vacibdir. Dövlət təkcə müəyyən idarəetmədən ibarət deyil. Dövlətin keyfiyyət göstəricisi həm də gələcəyin strategiyasının doğru müəyyən olunmasından keçir. Bu strategiyanın müəyyən olunmasında da Ramiz Mehdiyevin mühüm rolu var. O, Azərbaycan dövlətinin bu gün ayaqda durması, müəyyən dərəcədə beynəlxalq tanıtımı baxımından xüsusi rolu olan simalardan biridir. Doğum günü münasibətilə təbrik edirəm".

❑ **Etibar SEYİDAĞA**

*P.S. "Yeni Müsavat" Media Qrupu da Ramiz Mehdiyevi ad günü münasibətilə təbrik edir, ona işində və şəxsi həyatında uğurlar arzulayır.*



# Zakir Həsənov Əli Laricani ilə görüşdü

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində aprelin 17-də İslam Şurası Məclisinin sədri Əli Laricani ilə görüşüb. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.**

Görüşdə müdafiə naziri Azərbaycan və İran prezidentlərinin, dövlət rəsmilərinin çoxsaylı görüşləri və qarşılıqlı rəsmi səfərlərinin ölkələrimiz arasında əlaqələrin genişlənməsinə mühüm töhfə verdiyini, ikitərəfli əməkdaşlığın inkişafına və daha da gücləndirilməsinə xidmət etdiyini bildirib.

Regionda təhlükəsizlik məsələlərinə toxunan general-polkovnik Z.Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı aparılan danışıqlar, xüsusən də son vaxtlarda qoşunların qarşıdurma xəttində baş vermiş hadisələr barədə məlumat verib.

Ə.Laricani isə öz növbəsində İranın Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü daim dəstəklədiyini, münaqişənin sülh yolu ilə beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinin tərəfdarı olduğunu vurğulayıb.

Tərəflər Azərbaycanla İran arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivlərini, qarşılıqlı maraq doğuran regional, qlobal və digər məsələləri müzakirə ediblər.

**Aprelin 17-də Qeyri-neft ixracatçılarının Yevlaxda keçirilən respublika müşavirəsində Azərbaycan prezidenti İlham Əliyev mühüm mesajlar verib. Dövlət başçısı cari ilin birinci rübündə ölkəmizdə əldə edilən uğurlara toxunaraq deyib: "Bu ilin göstəriciləri çox sevindiricidir. Mən bu barədə artıq demişəm, bir daha demək istəyirəm ki, bu ilin üç ayının göstəriciləri bizi çox ruhlandırır. Bu, bir daha göstərir ki, 2016-cı ildə qəbul etdiyimiz qərarlar və başladığımız islahatlar qısa müddət ərzində öz gözəl nəticələrini verib".**




# Prezident Yevlaxda keçirdiyi müşavirədə mühüm mesajlar verdi

## İlham Əliyev "2017-ci il Azərbaycan üçün çox uğurlu il olacaq" dedi; "Sahibkarlarımızın istənilən bazara çıxış əldə etməsi üçün heç bir siyasi əngəl yoxdur"; "Artıq "Made in Azerbaijan" brendi dünyada şöhrət qazanır"

**AZƏRTAC-ın xəbərinə görə, dövlət başçısı bildirib ki, bu ilin üç ayında iqtisadiyyatımızın qeyri-neft sektoru 2,4 faiz artıb:** "Bu, çox yaxşı göstəricidir. Qeyri-neft sənayemiz 2 faiz, kənd təsərrüfatı 3,5 faiz artıb. Üç ay ərzində 80 mindən çox yeni iş yeri yaradılıb. Ticarət dövriyyəmiz 15 faiz, ixrac 50 faizə yaxın artıb, idxal 17 faiz azalıb. Kənd təsərrüfatı məhsullarının ixracı isə 44 faiz artıb. Müsbət saldomuz 1 milyard dollardan artıqdır. Biz üç ayda 1 milyard dollar vəsait qazanmışıq. Bizim valyuta ehtiyatlarımız artır. Bu müsbət dinamika deməyə əsas verir ki, biz il ərzində daha da böyük nəticələrə gəlib çatacağıq. Çünki götürdüyümüz bu temp və geniş vüsət almış islahatlar, o cümlədən sahibkarlar tərəfindən bizim siyasətimizə göstərilən praktiki dəstək, - onlar öz işi ilə, öz investisiyaları ilə bunu göstərirlər, - deməyə əsas verir ki, 2017-ci il çox uğurlu il olacaq. Eyni zamanda biz yeni iqtisadi modelə keçməklə bundan sonra iqtisadiyyatımızı ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirəcəyik".

"Biz xarici bazarları da geniş təhlil etməliyik, araşdırmalıyıq. Çünki indi bazarlar uğrunda mübarizə gedir. Bizə elə gəlməməlidir ki, biz burada istehsalı artıracağıq, ixracyönümlü məhsulları istehsal edəcəyik və ondan sonra bütün məsələlər öz həllini tapacaq. Yox, biz bazarlar uğrunda mübarizə aparmalıyıq və aparırıq. Bunun üçün, ilk növbədə, xarici bazarlar dəqiq təhlil edilməlidir, həm onların indiki vəziyyəti, həm də perspektivləri. Biz də bunu yaxşı bilirik ki, indi bir çox ölkələr daxili tələbatını daxili istehsal hesabına təmin etmək istəyirlər və təkcə biz bu işlə məşğul olmuruq. Ona görə bizim üçün bilmək vacibdir ki, məsələn, ənənəvi bazarlarda hansı tendensiyalar gedir, hansı dövlət proqramları icra edilir və bu proqramların nəticəsində hansı məhsulun yetişdirilməsi, istehsalı gözlənilir və öz işimizi buna uyğun şəkildə planlaşdırmalıyıq" - deyə prezident qeyd edib. (APA)

**Dövlət başçısı həmçinin deyib:** "Bizim üçün indi ənənəvi bazarlar var və o bazarlara ənənəvi məhsulumuz ixrac edilir. Ancaq bir gün o bazarlarda, o ölkələrdə onlar daxili tələbatı təmin edəcəklər, bizim məhsulumuza ehtiyac olmaya bilər, onda biz nə edəcəyik? Ona görə, bax, burada çox ciddi analiz aparılmalıdır ki, mövcud vəziyyət və potensial vəziyyət nədən ibarətdir. Bununla paralel olaraq biz yeni bazarlara çıxmalıyıq. Elə fikirləşməməliyik ki, bizim burada ənənəvi qonşuluqda bazarlarımız var və nə istehsal ediriksə, onu da oraya göndəririk. Biz bu sahədə də çox dəqiq siyasət aparmalıyıq. İxracın şaxələndirilməsi məsələləri təkcə çeşidlərlə ölçülmür. Biz coğrafiyanın şaxələndirilməsinə və bütövlükdə yeni bazarlara çıxışa nail olmalıyıq, ənənəvi bazarlarda mövqelərimizi daha da möhkəmləndirməliyik".

**Prezident qeyd edib ki, bunun müxtəlif yolları var:** "İlk növbədə və ən başlıcası hesab edirəm ki, burada əsas məsələ yaxşı siyasi əlaqələrin mövcudluğudur. Azərbaycanın demək olar ki, bütün ölkələrlə, o cümlədən, ilk növbədə, qonşu ölkələrlə çox yaxşı işgüzar dostluq münasibətləri var. Bu, bu gün dünya miqyasında o qədər də tez-tez rast gəlinən mənzərə deyil. Daha çox qonşular arasında mübahisələr olur, problemlər yaranır. Ermənistan istisna olmaqla, bizim heç bir qonşu ilə heç bir problemimiz yoxdur. Əksinə, son illər ərzində apardığımız siyasət nəticəsində dörd qonşu ölkə ilə bizim münasibətimiz sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Ona görə bu imkanlardan sahibkarlar da istifadə etməlidirlər. Onlar üçün qonşu bazarlara və hər hansı bir bazara çıxış əldə etmək üçün heç bir siyasi əngəl yoxdur. Amma biz görürük ki, harada siyasi problemlər var, bu, sahibkarlara da dərhal təsir edir, müxtəlif bəhanələrlə məhdudedici tədbirlər görülür, ixrac üçün problemlər yaranır. Bizim sahibkarlar bundan azaddırlar. Bizim siyasətimizin sayəsində bu, yoxdur. Ancaq bir daha demək istəyirəm ki, biz bazarları, indiki durumu və perspektivləri çox dəqiq təhlil etməliyik və yeni bazarlara çıxış əldə etməliyik. Biz xarici bazarlarda öz mövqelərimizi möhkəmləndirməliyik və bunun üçün logistika mərkəzlərinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Birinci belə təcrübə var. Artıq burada çıxışlarda da səsləndi. Qazaxıstanın Aktau vilayətində Azərbaycanın xaricdə birinci logistika mərkəzi yaradıldı. Bu mərkəzin çox böyük əhəmiyyəti var. Bu, bizə imkan verəcək ki, öz məhsullarımızı rahatlıqla Orta Asiya, Qazaxıstan bazarlarına ixrac edək. Başqa ölkələrdə də bu mərkəzlər yaradılmalıdır. Bu işlərdə xaricdə yaşayan azərbaycanlılar da öz rolunu oynamalıdırlar".

**"Biz bu gün inamla deyə bilərik ki, Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib. Hazırda qeyri-neft sektorumuz iqtisadiyyatımızın təxminən 65 faizini təmin edir" - deyə, prezident bildirib:** "İxracatda isə biz bunu hələ ki deyə bilmərik. İxracımızın böyük hissəsi hələ ki neft və qazla bağlıdır. Bu da yəqin ki, indiki dövr üçün təbiidir. Çünki biz neft-qaz potensialımızı artırırıq. Ancaq qarşıda duran vəzifələrdən biri də odur ki, biz ixracda da şaxələndirməyə nail olaq. Necə ki, buna ümumi daxili məhsulda nail olmuşuq, ixracda da buna nail olmalıyıq".

**Prezident İlham Əliyev regional inkişaf proqramlarının icrasının öz gözəl nəticələrini verdiyini, minlərlə yeni müəssisənin yaradıldığını vurğulayıb. Dövlətimizin başçısı bir milyon 700 min yeni iş yerinin açıldığını, onların bir milyon 300 mininin daimi iş yeri olduğunu bildirib.**

**Bu il fermerlərə təxminən 150 min hektar yeni suvarılan torpağın təhvil veriləcəyini diqqətə çatdıran prezident deyib:** "Bir il ərzində bu qədər suvarılan torpağı əldə etməyimiz tarixi nailiyyətdir.




"Made in Azerbaijan" brendini dünyada tanıtdırmaq üçün praktiki addımlar atılır. Artıq bu brend bu gün dünyada şöhrət qazanır. Əlbəttə ki, dövlət tərəfindən təşkil edilmiş sərgilər və o sərgilərdə sahibkarların iştirakı gözəl nəticələrə gətirib çıxarır. Mənə verilən məlumata görə, bir neçə sərgidə artıq kontraktlar da imzalanıb. Əgər biz bu sərgilərdə iştirak etməsəydik, kontraktlar da imzalanmazdı. Yəni biz gördük ki, sahibkarlara əlavə kömək göstərilməlidir" - prezident bildirib: "Mən artıq qeyd etmişəm, kreditlər verilir, fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Texnika alınır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir. Bütün bunlar qeyri-neft sektorumuzu canlandırdı. Ancaq sahibkarlara əlavə dəstək verilməlidir ki, onlar artıq öz məhsullarını xarici bazarlara çıxarsınlar. Çünki bu, onlara da, dövlətə də lazımdır. Bu, ölkəmizə valyuta gətirir. Ona görə biz bu sərgilərdə iştirakımızı genişləndirməyə başladıq. Xarici ölkələrə bir neçə ixrac missiyası ezam edilmişdir. Bu missiyaların da çox böyük faydası var. Qərara gəldik ki, bir neçə ölkədə Azərbaycanın ticarət evlərini yaradaq və biz artıq buna yaxınlaşırıq. Yəni dövlət tərəfindən atılmış bütün bu addımlar əlbəttə ki, sahibkarlar üçün yeni imkanlar yaradır. Tütünçülüyün böyük potensialı var. Biz bu sahəni də bərpa etməliyik. Sovet vaxtında indikindən 10 dəfə, bəlkə də ondan da çox tütün tədarük edilirdi. İndi bu il 3 min hektarda tütün əkilibdir və təqribən 3-4 min ton quru tütün tədarük ediləcək. Biz bu rəqəmi qısa müddət ərzində 10 min ton səviyyəsinə qaldırmalıyıq. Buna da nail olmaq mümkündür. Pambıqçılıqda olduğu kimi, subsidiyalar verilir. Əlbəttə ki, yeni, müasir siqaret fabriklərinin tikintisi də nəzərdə tutulmalıdır. Ona görə yox ki, bizim vətəndaşlar daha çox siqaret çəksinlər, xeyr, siqaret çəkmək çox pis vərdişdir. Mən özüm siqaret çəkmirəm, heç kimə də məsləhət görmürəm. Ümid edirəm ki, Azərbaycanda siqaret çəkənlərin sayı azalacaq. Ancaq bunun ixracı çox gəlir gətirən bir sahədir və təbii şəraiti olan ölkədə tütünçülüyün inkişaf etdirilməməsi başadüşülən deyil. Ona görə, biz tezliklə bu sahədə ciddi artıma nail olmalıyıq. Mən real rəqəmi səsləndirirəm. Bir daha demək istəyirəm ki, 10 min ton quru tütünün tədarükü real rəqəmdir".

**Azərbaycan prezidenti 2016-cı ildə ölkəyə ən çox valyuta gətirən məhsulları açıqlayıb:** "Birinci yerdə fındıqdır. Bu məhsul ölkəmizə 105 milyon valyuta gətirib. Fındıqçılığın inkişafı çox sürətlə gedir. Burada da səsləndi, biz 15 min hektar yeni fındıq bağları saldıq və bu iş sürətlə gedir. O cümlədən baramaçılıq. Biz 2015-ci ildə 200 kiloqram barama tədarük etmişdiksə, keçən il bu, 70 ton olub. Bu il 100 ton olacaq. Fındıq bizim 19 rayonda daha çox yetişdirilir, ancaq potensial 46 rayonda var. Hesab edirəm ki, biz fındığın istehsalını da, ixracını da iki dəfə artıra bilərik. Biz o 105 milyonu 200 milyona rahatlıqla çatdıra bilərik. Eyni zamanda bu il badam bağlarının salınmasına başlanılıb. Bizdə onların sahəsi çox kiçikdir, cəmi min hektar badam bağımız var. Onların da 900 hektarı Naxçıvan Muxtar Respublikasındadır. Amma Bakı, Abşeron yarımadası badam üçün çox münbit məkandır. Ona görə indi yeni bağlar salınır, min hektarlarla badam bağları salınmalıdır. Mən sahibkarlara da bunu məsləhət görürəm. Həmçinin zeytunçuluq və şəkər çuğundurunun yetişdirilməsi. Biz zeytun yağı ilə özümüzü tam təmin etməliyik. Hələ ki buna nail ola bilməmişik. İxrac edirik, ancaq daxili tələbat hələ ki ödənilmir. Şəkər çuğunduru isə bu il çox geniş vüsət alıb. Biz şəkəri şəkər çuğundurundan emal etməliyik. Burada da çox böyük potensial var. Deməli, birinci yerdə fındıqdır, ikinci yerdə pomidordur. Keçən il 94 milyon dollar dəyərində pomidor ixrac edilib. Üçüncü yerdə xurmadır - 68 milyon dollar, dördüncü yerdə şəkərdir - 62 milyon dollar. Amma burada biz bilməliyik ki, bu şəkərin böyük hissəsi qamış şəkərindən, xammalından istehsal olunub. Yəni şəkərin istehsalı üçün xaricdən xammal gətirilib. İndi biz çuğundura keçəndən sonra 62 milyonun hamısı ölkəmizdə qalacaq, yəni, idxala pul ayrılmayacaq. Hesab edirəm ki, biz şəkərin istehsalını rahatlıqla iki dəfə artıra bilərik, ya İmişli rayonunda yerləşən zavodda, ya da geniş vüsət alarsa, yeni zavod tikilə bilər. Beşinci yerdə pambıq qərarlaşıb. Pambıq keçən il bizə 24 milyon dollar valyuta gətirib. Amma bu, birinci ildir. Əminəm ki, bu rəqəm bu il bundan iki dəfə çox olacaq. Yəni, qeyd etdiyim bu beş pozisiya üzrə ölkəmizə keçən il 350 milyon dollar valyuta gəlib. Biz ancaq bunları iki dəfə artırmaqla görün, rahatlıqla nə qədər böyük valyuta əldə edəcəyik. Məndə siyahı böyükdür. Burada sənaye, ərzaq, kənd təsərrüfatı malları var. Bu gün müşavirənin ikinci hissəsində dövlət qurumlarının nümayəndələri sahibkarların suallarına cavab verəcəklər və bu məsələləri daha da geniş işıqlandıracaq".

**"Turizmə ixrac məhsulu kimi baxmalıyıq. Çünki turizm bizə nə verir? Valyuta. İxrac nə verir? Valyuta. Biz turizmin inkişafından milyardlarla valyuta qazanacağıq" - deyə prezident bildirib.**



# İş yerlərinin sirri

Zamin HACI
zaminhaci@gmail.com

**Deyir, ilin ilk 3 ayı ərzində 85 min yeni iş yeri açılmışdır. Ancaq işsiz zəhmətkeşlərimiz ha baxırlar, bu iş yerlərini görə bilmirlər. Hərəniz öz yaxın çevrənizə nəzər salsanız (əlbəttə, burada xoşbəxt zəhmətkeşlərdən - iş tapanlardan söhbət gedir, işsizlərdən çevrələrinə baxmağı istəyəcək qədər qanacaqsız olmadıq) xeyli işsiz görəcəksiniz. Misal üçün, mənim bu dəqiqə şəxsən tanıdığım 2 müəllim, 1 texnoloq, 3 iqtisadçı, 3 fəhlə, 2 mühəndis, 2 həkim işsizdir. Neft gəlirləri aşağı düşənə qədər bu cür insanların hərəsi müəyyən bir yerdə başını qatırdı. Biri parkda qoruq çəkirdi, başqası həmin parkı remont edirdi, bir ayrısı həmin parkın remontu üçün ayrılan dövlət vəsaitini şişirdib dolanırdı və sairə. İndi isə müftə gəlirlər və onların süfrə artıqlarında ciddi azalma var. İşləmək lazımdır. Bu baxımdan, 85 min yeni iş yeri xalqımıza hava-su kimi gərəkdir. Bəs o zaman bu rəqəmlərin uydurma olduğunu, propaqanda üçün səsləndiyini deyə bilərikmi?**

Qətiyyən. Bizim hakimiyyətə yüksək etimadımız vardır. Yenə bunlar yeyib doyublar. 1492-ci ildə Kolumb Amerikaya gəlmişdi, gördük də!? 1893-cü ildə birja iflasa uğramışdı, ABŞ-da iqtisadiyyat tənəzzülə uğramışdı. Bəs o zaman biz ilin əvvəlindən bəri açılan həmin 85 min yeni iş yerini - sözgəlişi, 85 müqəddəs rəqəmdir - niyə görmürük? Çox sadə səbəbdən: bunlar gözəgörünməz iş yerləridir! Yeni texnologiya ilə açmışıq. Elə dünən istefa verən Rabitə Nazirliyi Yüksək Texnologiya Parkının müdiri Seymur müəllimin hərəkəti də bu üsulla əlaqədardır. İz azdırırıq. O qədər düşmən var, biri elə ermənilər. Əgər onlar bizim yeni iş yerlərimizin ünvanlarını bilsələr, dərhal həmin yerləri qaralamaq və hətta mümkündür ki, gəlib o nöqtələri tutmaq istəsinlər! Son aylar xeyli Ermənistan vətəndaşının Bakıya axışması təsadüf deyildir. Ona görə də dövlət rəhbərliyi yeni iş yerlərini xüsusi rejimlə qoruyur, gizli saxlayır, iş yeri açanları tuturlar. Son cümlə ikibaşlı alındı, yəni iş yeri açan deyərkən iş yerlərinin yerini açanlardan söhbət gedir. Hətta Dövlət Təhlükəsizlik Xidmətində, müvafiq hüquq-mühafizə orqanlarında iş yerləri sirrinin xüsusi mühafizəsi xidməti vardır. Bunun özü də dövlət sirridir, hər adama deməyin, mən böyük risk elədim bunu yazdım. Məsləhətdir yazını oxuyandan sonra qəzeti yemək - düşmən əlinə sirlərimiz keçməsin...

Başqa bir önəmli uğurumuz isə ilin ilk 3 ayı ərzində 1 milyard dollar qazanmağımızdır. Bu hesabla ilin sonuna qazancımız 4 milyard olacaqdır. Xərcimiz-borcumuz nə qədər olacaq, heç onu fikirləşməyə ehtiyac yoxdur. Əsas odur 4 milyard qabağıq. Gör nə qədər yol çəkmək, müasir işıqlandırma sistemləri olan parklar, istirahət ocaqları düzəltmək mümkündür... Hələ yeni oyunları demirəm. Dünən müvəqqəti olaraq Bakımızın yollarını gəzirdim, orada "İslam Oyunları" üçün ayrılan hərəkət zolaqlarını görəndə gözüm doldu. Fərəhdən, əlbəttə. Heç ermənilər İslam Oyunları keçirə bilirmi? Onların gücü, imkanları ancaq Qarabağda eşşək ötüşdürmə yarışlarına çatırdı, deyəsən son illər heç onu da təşkil eləməyə dram tapmırlar. Ümumiyyətlə, bir dövlətin ki, milli valyutası dram adlana, o dövlət daima dramatik günlər yaşamağa məhkumdur. Əsl dövlət pulu manat olar. Kimin dolları varsa indidən manata çevirsin. Məsələn, mənim bir tanışım var, üstündə "Milli Bank" yazılan manatlıqları yığıb saxlayırdı. Kimsə buna fırıldaq gəlmişdi ki, guya "Mərkəzi Bank" yazılan təzə manatlara nisbətdə bunlar daha bahalıdır. İndi həmin manatlıqları salfetkaya verib burnunu silir. Qrip olmuşdu.

Ancaq daha Pasxa qurtardı, indən belə havalar yaqin günəşli keçəcəkdir. Yazını elə bu cür xoş ovqatla bitirirəm.

# Türkiyədə "balkon çıxışı"nın tarixi

## Mübariz Əhmədoğlu: "Türkiyədə "balkon çıxışı" Osmanlı İmperiyası dövründə yaranan ənənələrin təzahürüdür"

**Aprelin 16-da Türkiyədə keçirilən referendum seçkiləri sonrası ilk olaraq AKP-nin baş qərargahında baş nazir Binəli Yıldırım, bir qədər sonra isə prezident Rəcəb Tayyib Ərdoğan Prezident Sarayında "balkon çıxışı" etdilər.**

Bəs Türkiyədə "balkon çıxışı" ənənəsi nə zaman formalaşıb və bunun əhəmiyyəti nədir?

Ekspertlər bildirirlər ki, bu kimi ənənə hələ Osmanlı İmperiyası dönəmindən mövcud olub. Zaman keçdikdə isə bu ənənələr bir qədər də inkişaf edərək hazırkı vəziyyətə gəlib. Bildirilir ki, xüsusilə də Ərdoğan "balkon çıxış"ı ənənəsini siyasi məkana gətirən şəxsdir. Lakin bununla yanaşı, Türkiyənin əski filmlərində də hətta bələdiyyə sədrlərinin bu cür "balkon çıxışları" etmələri ilə bağlı səhnələrə rast gəlmək olur.

Türkiyədən fərqli olaraq, Azərbaycanda bu ənənələr mövcud deyil. Ölkəmizdə mövcud olan siyasi partiya liderləri adətən sosial şəbəkələr, media vasitəsilə xalqa müraciət etməyi üstün tuturlar. İnşaat baxımından da Azərbaycanda əksər partiyaların qərargahları balkon çıxışları etmək üçün əlverişli deyil.

**Mövzu ilə bağlı "Yeni Müsavat" danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, Azərbaycanda partiyalar hələ çar Rusiya ənənəsini davam etdirir:** "Osmanlı İmperiyası dünya tarixində müəyyən ənənələr qoyan bir imperiya olub. 1299-cu ildən 1922-ci ilə qədər tarixi, üç qitədən isə ərazi götürüb. Bunun özü çox şey deyir. Təbii ki, dünya tarixində bir çox ənənələrin



bünövrəsi də elə Osmanlı İmperiyası ilə bağlı olub. Eyni zamanda müəyyən vaxt keçdikcə yaranan ənənələr başqa bir ənənənin də formalaşmasına şərait yaradıb. Türkiyədə bu cür "balkon çıxış"ları da həmin ənənələrin təzahürüdür. Azərbaycana gəlincə isə burada siyasi partiyalar hələ də SSRİ dövründən formalaşmış ənənələr üzrə fəaliyyət göstərirlər. Çar Rusiyası dövründə partiyalaşma ənənələri inqilabçılıq dalğalarının üzərində qurulan proses idi. Ona görə də fikir versək görərik ki, bizim partiyalar üçün daha vacibi, məsələn, "Fəvvarələr meydanı"nda bir qrup halında toplanıb şüar deməkdir. Yəni bunların hamısı Çar Rusiyası dönəmindən qalma adətlərdir. Hesab edirəm ki, biz nə qədər Avropada partiyalaşma ənənələrini yaşatsaq, o qədər qazancımız olar. Avropada partiyaların fəaliyyəti şüur, ağıl üzərində qurulub. Eləcə də Türkiyədə də bu sistem tamamilə başqa formada, hərbi məcra üzərində formalaşıb".

**Politoloq bildirib ki, "balkon çıxışı" ənənələri hələ Bakı üçün uyğun deyil:** "25 ildir ki, müstəqillik əldə etmişik və hələ ki biz dünyanın diqqətindəyik. Bizi öyrənirlər və düşünürəm ki, hansısa onlar üçün anlaşılmaz hərəkət gördükdə, bizdən uzaqlaşa bilərlər. Biz şüurumuzda, ortaya qoyduğumuz ideyalarda nə qədər çox soyuqluq yarada bilsək, emosiyanı azaldarsaq, bütövlükdə cəmiyyət qazanar. Cəmiyyətin qazanması, müxalifət və iqtidarda olmağından asılı olmayaraq, həmin partiyanın da hərtərəfli qazanması anlamına gəlir. Ona görə də hesab edirəm ki, emosiyadan uzaq siyasət aparmalı, cəmiyyətimizi də buna alışdırmalıyıq".

**Politoloq Əhəd Məmmədli isə bildirib ki, "balkon çıxışları" AKP dönəmindən başlayıb:** "Ümumiyyətlə, partiya qurulan zaman Türkiyə siyasətinə yenilik şüarları ilə gəldi. Həqiqətən də yeniliyi hər sahədə tətbiq etməyə başladılar. O cümlədən də təbliğat sahəsində bu işlər aparıldı. Əsasən "balkon çıxışları" onun göstəricisidir ki, biz qələbə qazandıqdan sonra da xalqla birlikdəyik. Yəni göstərirlər ki, ilk açıqlamanı mətbuata vermirik, jurnalistləri yığıb ənənəvi mətbuat konfransı təşkil etmirik. Bunun əvəzində isə xalqı dəvət edib, canlı şəkildə xalqla danışırlar. Bu, xalqla AKP-nin bütövləşməsi deməkdir. Bütün bunların hamısı Ərdoğanı xalq lideri, xalqın tərəfindən sevilən liderə çevirdi. İstər bələdiyyə, istər prezident seçkiləri, istərsə də referendumda hər qələbədən sonra "balkon çıxışları" edilir və Ərdoğan gələcəyə doğru mesajlarını verir".

❑ Əli RAİS

# Azərbaycanda həbs edilən FETÖ-çülərin işi nə yerdədir...

## Ekspert: "Bu, artıq Azərbaycanın gündəmində olmayan məsələdir"

**Türkiyədə ötən ilin 15 iyul hadisələrindən sonra dövlət çevrilişinə cəhddə ittiham olunan FETÖ (Fətullahçı Terror Örgütü) tərəfdarlarına qarşı genişmiqyaslı əməliyyatlar başladı. Əməliyyatlar nəticəsində xeyli sayda məmur, güc strukturlarının əməkdaşları həbs olundular.**



Həmin ərəfədə Azərbaycanda da oxşar addımlar atılaraq, FETÖ ilə əlaqəsi olan şəxslər istintaqa cəlb olundu, bir sıra qurumlar bağlanıldı.

Mətbuata açıqlama verən Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov bildirmişdi ki, Azərbaycanda bu məsələ ilə bağlı atılan addımlar, aparılan tədqiqatlar göstərir ki, bu təşkilat birbaşa tərəfdarları ilə bərabər, ölkəmizdəki bəzi müxalifət qurumları ilə də əlaqəlidir:

"Azərbaycan dövlətinə və dövlətçiliyinə, onun maraqlarına ziyan vurmaq cəhdlərinin qarşısı hər vasitə ilə alınacaq".

Açıqlamadan bir neçə gün sonra FETÖ əməliyyatları çərçivəsində Azərbaycanda Fətullah Gülənin müsahibəsini anons edən ANS telekanalı, təhsil müəssisələri, "Zaman-Azərbaycan" qəzeti və saytı qapadıldı. Avqustun 19-da isə Respublika Prokurorluğu "Gülən camaatı" ilə əlaqədə ittiham olunan 3 nəfəri saxladığı haqda məlumat da yaydı.

Onlardan biri AXCP Xətai rayon gənclər təşkilatının sədri Fuad Əhmədlidir. Bunun ardınca yenə də AXCP sədrinin köməkçisi Faiq Əmirli Cinayət Məcəlləsinin 283-cü maddəsi (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) istintaqa cəlb olundu...

Bəs hazırda bu şəxslərin istintaqı nə yerdədir? Durumları necədir?

Hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan Faiq Əmirlinin səhhətində problemlər var. Vəkili Fəxrəddin Mehdiyev bildirib ki, F. Əmirlinin öd kisəsində və qaraciyərində problem yaranıb. Vəkilin sözlərinə görə, Faiq Əmirli təcridxananın tibb müəssisəsində müayinə olunub, xəstəliyi təsdiqlənib.

Onu da qeyd edək ki, noyabrın 11-də Nəsimi Rayon Məhkəməsi prokurorluğun tədqimatı ilə Faiq Əmirlinin həbs müddətini 2017-ci il yanvarın 12-dək uzadıb. Bu qərardan Bakı Apelyasiya Məhkəməsinə edilən şikayət isə qəbul olunmayıb.

Fuad Əhmədlinin isə artıq məhkəmə prosesi başlayıb. Belə ki, aprelin 13-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fikrət Qəribovun sədrliyi ilə işə baxılıb. Məhkəmənin tərkibi və Fuad Əhmədlinin anket məlumatları elan edildikdən sonra məhkəmə aprelin 25-i saat 10-dək təxirə salınıb.

Rəsmi ittihama görə Fuad Əhmədli "Azərfon" MMC-də çalışdığı müddətdə abonentlərin şəxsi məlumatlarını üçüncü şəxsə ötürüb. Həmçinin bildirilib ki, F. Əhmədlinin mənzilində axtarış zamanı türkiyəli din xadimi Fətullah Gülənin çıxışlarının olduğu kitablar, CD-disklər tapılıb.

Martın 6-da F. Əhmədlinin barəsində ittiham Cinayət Məcəlləsinin 302.1-ci maddəsindən (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin pozulması) 308.1-ci maddəyə (vəzifə səlahiyyətlərindən sui-istifadə) tövsif edilib.

F. Əhmədli ittihamı rədd edir.

**FETÖ əməliyyatları və onların nəticələri ilə bağlı ölkədəki hazırkı durumu "Yeni Müsavat"a şərh edən təhlükəsizlik üzrə ekspert İlham İsmayıl bildirib ki, bu, artıq Azərbaycanın gündəmində olmayan məsələdir:**

"Azərbaycanda təhsildən tutmuş, maliyyə-ticarət məsələlərinə qədər bu şəbəkəyə bağlı ayrı-ayrı nümayəndələr, strukturlar var idi ki, bu, daha öncədən də bəlli idi. Ancaq Türkiyə hakimiyyəti ilə FETÖ arasında münasibətlərin gərgin olmadığı surətdə bizdə də vəziyyət normal idi. Onlardan heç bir təhlükə gözləmirdilər. Sonradan isə Türkiyə-Azərbaycan iqtidarlarının qarşılıqlı münasibətləri nəticəsində burada da "FETÖ əməliyyatı" aparıldı. Hətta deyərdim ki, burada da bir qədər məsələni abartdılar. Xüsusilə təhsillə bağlı daha mülayim qərarlar verə bilərdilər. Çox radikal qərarlar verildi. İndi isə bu təmizləmə əməliyyatı bitmiş və gündəmdə olmayan məsələdir. Yenidən ortaya çıxması isə uzun bir gələcəyin işidir. İndiki halda hesab edin ki, bitib".

❑ Əli RAİS

# Türkiyə üçün yeni dönəm başlandı

## 16 aprel referendumunun nəticələrinə Azərbaycandan münasibət və qardaş ölkənin gələcəyi barədə proqnozlar...



**Türkiyədə 16 apreldə keçirilən referendumda seçicilərin 87 faizi iştirak edib. 51,3 faiz konstitusiya dəyişikliklərinin lehinə, 48,7 faiz isə əleyhinə səs verib. Referendumun yekun nəticəsi 11-12 gündən sonra açıqlanacaq. Hələ ki ortada 500 min bülletenin möhürsüz olması-saxtakarlıq edildiyi iddiaları da var. Hesab olunur ki, araşdırmaların sonrakı gedişində sürpriz qərarlar verilə bilər.**

Aprelin 17-də CHP-dən kritik açıqlama gəlib. CHP başqan yardımçısı Bülənt Tezcan kameraların qarşısına keçərək Yüksək Seçki Komissiyasını (YSK) etibarlı seçki keçirə bilməməkdə ittiham edib. Bildirib ki, millətin narahatlığını aradan qaldırmaq üçün tək bir yol var: "YSK seçki nəticələrini ləğv etməlidir". CHP nümayəndəsinin iddiasına görə, YSK səsləri gizli sayib.

Ancaq Türkiyənin əksər siyasi şərhçiləri ölkədə demokratik seçki ənənəsinin olmasını əsas gətirib nəticəyə şübhə ilə yanaşılmasını doğru saymırlar.

Referendumun nəticələrinə əsasən konstitusiya dəyişikliyi baş tutmuş sayılır. Bu dəyişikliyə əsasən, Türkiyə parlament üsul-idarəsindən prezident üsul-idarəsinə keçdi. Türkiyədə baş nazirlik ləğv ediləcək. Əvəzində prezident vitse-prezident, nazirlər, hakimlər kollegiyasının üzvləri və prokurorları təyin edəcək.

Türkiyə KİV-ləri yazır ki, prezident Ərdoğanı ilk təbrik edən Azərbaycan prezidenti İlham Əliyev olub. Türkiyə prezidentini daha sonra Qatar əmiri və Fələstin lideri təbrik ediblər.

Bildirilir ki, prezident İlham Əliyev referendumun nəticələrini "xalqın prezident Rəcəb Tayyib Ərdoğanın siyasətinə verdiyi böyük dəstək kimi" qiymətləndirib.

**ABŞ Dövlət Departamenti isə bildirib ki, Türkiyədə konstitusiya dəyişikliyi ilə bağlı keçirilən referendumun nəticəsi haqda ATƏT-in bəyanatı olmadan hər hansı şərh verməyəcək:** "Türkiyədəki referendumun nəticələrini əlbəttə ki, izləyirik. Nəticələrin təsdiqlənmədən və ATƏT-in müvafiq hesabatları olmadan isə şərh verməyəcəyik".

**Almaniya kansleri Angela Merkelin xarici işlər naziri ilə birgə verdiyi ortaq açıqlamasında isə deyilir:** "Almaniya hökuməti Türkiyədəki referendumun rəsmi olmayan nəticələrini nəzərə alır. Alman hökuməti türk xalqının konstitusiya ilə bağlı qərarına hörmət edir. Referendumda əldə edilən nəticə türk toplumunun nə qədər bölünmüş olduğunu göstərir. Bu durum Türkiyə hökuməti və prezident Ərdoğan üçün böyük məsuliyyət anlamı daşıyır".

**İran Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasimi isə Türkiyədə keçirilən referendumu Türkiyənin daxili məsələsi adlandırıb və deyib ki, xalq nəyə səs veribsə, İran ona hörmətlə yanaşacaq:** "Ümid edirik ki, bu referendum Türkiyə daxilində birliyə, sabitliyə və sülhə xidmət edəcək".

**Referendumu izləmək üçün Azərbaycan nümayəndə heyəti də Türkiyədə səfərdə olub. Milli Məclisin deputatı, Türkiyə-Azərbaycan dostluq qrupunun üzvü Ağalar Vəliyev modern.az-a açıqlamasında referendumla bağlı təəssüratlarını bölüşüb:** "Bir neçə seçki məntəqəsində olduq. Sonda da sandıqlarda bülletenlərin sayılması mərhələsində iştirak etdik. Seçkilərin tam şəffaf keçirildiyini deyə bilərəm. Bizim olduğumuz məntəqədə 428 seçici var idi. Onların 399-u səs verdi. Türkiyədə keçirilən referendumda saxtakarlıqdan söhbət belə gedə bilməz. Bir çox ölkələrdə keçirilən seçkilərdə iştirak etmişəm, amma belə şəffaf seçki prosesi görməmişəm. Seçki o dərəcədə yüksək səviyyədə təşkil olunmuşdu ki, saxtakarlıqdan danışmağa lüzum yoxdur".

**A.Vəliyev bildirib ki, ATƏT-in də nümayəndələri seçkini izləyib:** "Azərbaycan nümayəndə heyəti kimi həm Türk PA-nın, həm də Türkiyə-Azərbaycan dostluq qrupunun üzvləri olaraq iştirak edirdik. Türkiyə-Azərbaycan dostluq qrupunun sədri Əhliman Əmiraslanovla birgə mən də prosesə qatılmışdım. Beynəlxalq təşkilatlardan Türk PA ilə bir yerdə Qırğızıstan və Qazaxıstanın parlament üzvləri də vardı. Bundan başqa, ATƏT-in üzvləri də referendumu izləyirdi. Biz öz raportlarımızı həm Türk PA-nın, həm də Azərbaycan-Türkiyə dostluq qrupunun adından təqdim edərək tam razılığımızı bildirdik. Müsbət rəy verdik".

Azərbaycanın siyasətçiləri və siyasi ekspertləri isə Türkiyədəki referendumun nəticələrini şərh ediblər və bu nəticələrin qardaş ölkədəki prosesləri hansı istiqamətə yönəldəcəyi barədə mülahizələrini yürüdüblər.

**Deputat Zahid Oruc bildirib ki, Türkiyənin daxili və xarici soyuq savaşdan qalibiyyətlə çıxması üçün xalqın iradəsi ortadadır:** "Dövlətin 100 illik siyasi şəklinin dəyişdiyini inkar etmək mümkünsüzdür. Kimin necə qiymətləndirməsindən asılı olmayaraq, prezidentli üsul-idarəyə keçid tam fərqli bir arxitekturadır. Parlamentli modeldən imtina Türkiyənin bütün idarəçilik sistemi içərisinə qoyulmuş minaları partlatmağa imkan verəcək və Türkiyəni milli bir elitaya dayanaraq, yönləndirməyə şərait yaradacaq. O üzdən qutulara yollanan 87 faizlik seçici dövlət işini və ya əsas siyasi savaşı silahlarla və devrimlərlə deyil, məhz demokratik mübarizələrlə aydınlatmış oldu. Şübhəsiz, Qərb və Şərq dünyası referendumun nəticələrini nə qədər təftiş etsələr də, sonda onu qəbul etməyə məcbur qalacaqlar. Lakin ən başlıcası, ekranlara fərqli rənglərlə gətirilən xalqın səslərini vahid Türkiyə və ay-ulduzlu Vətən amallarında yenidən birləşdirmək gərəkdir. Türkiyənin 21-ci əsrə qədəm qoyarkən yeni bir lideri meydana çıxarması demokratik ölkələr sırasında müstəsna hadisədir. Lakin nə qədər "tək adam" söyləsələr də, Atatürkün siyasi irsini və dövlətçilik fəlsəfəsini kənara qoymaq da heç bir iqtidara müyəssər olmaz. Ortada sayı az qala 24 milyona çatan "hayır" cəbhəsi var və Türkiyədə diktaturanı qurmaq üçün bu qədər insanın üzərindən keçmək də qeyri-mümkündür.

İndi qalibiyyəti qeyd edən hər kəs unutmasın-qalib partiya, yaxud şəxs, 2019-cu ildən yeni qanunla Türkiyənin birinci şəxsinə çevrilə biləcəkdir. Ona qədər dünya və regionda yaşanan müharibələrdən ölkəsini uğurla çıxarmaq referendumun nəticələrindən daha böyük önəm daşıyır. Erkən seçkiləri də ehtimal edənlər, unutmasınlar ki, onu da qazanmaq asan olmayacaq. İndiki konstitusiya ilə prezidentliyi qazanan siyasətçi tam ayrısı ola bilər.

Ona görə də Türkiyənin 100 illik seçimi terrorsuz, hüzur içərisində və demokratik ideallardan sapmayan, dinlə dəqiq sərhədləri tanıyan bir ölkə olaraq qalmasıdır.

İndi qalib və məğlubları vahid bir milli bayraq altına toplayan lider gerçək hədəflərə doğru gedə biləcəkdir".

**YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə isə deyib ki, Türkiyə Konstitusiyasında dəyişikliklər edilməsi üçün referendum keçirilməsi bütün dünyanın diqqətində idi. Çünki Türkiyə sıradan bir dövlət deyil, bu gün regionun və dünyanın siyasi proseslərinə ciddi şəkildə təsir edə bilir. Bu baxımdan, həmin ölkənin gələcək strateji yolunu seçməsi dünya dövlətlərinin marağına səbəb olub:** "Türkiyə hakimiyyət bölgüsünü daha dəqiqliklə həyata keçirdi. Stabilliyin təmin edilməsi, terrorun qarşısının alınması üçün dövlət səviyyəsində ciddi tədbirlər görülür. Dəyişikliklərlə bağlı Türkiyə cəmiyyətində çox ciddi müzakirələr getdi. Bu, Türkiyənin demokratik, hüquqi dövlət olduğunu göstərdi. 51 faiz seçicinin yeniliyi dəstəkləməsi dəyişiklikləri dəstəkləyənlərin ciddi sosial bazasının olduğunu göstərdi. Bu yenilik gələcəkdə əleyhdarların da yeni prinsipi, quruluşu dəstəkləməsinə gətirib çıxaracaq. Konstitusiyada edilən dəyişikliklər demokratiyanı, hüququ daha da möhkəmləndirəcək. Bu, terrora qarşı mübarizədə daha effektiv olacaq. Bundan başqa, Türkiyə regionda nüfuzlu bir dövlət kimi daha da möhkəmlənəcək".

**Politoloq Elxan Şahinoğlu isə deyib ki, əslində bu nəticə hakim Ədalət və İnkişaf Partiyası və prezident Ərdoğan üçün sürpriz oldu. Ərdoğan daha böyük uğura ümidli idi:** "Çünki birincisi, administrativ resurs "evet"e işləyir, Milliyyətçi Hərəkat Partiyası onu dəstəkləyir, üstəgəl, meydanları yüz minlərlə insan doldururdu. Bunun qarşılığında "hayır" cəbhəsi yalnız Cümhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğlunun ətrafında toplanmışdı. O, böyük "evet" cəbhəsinə qarşı meydanlarda təkbaşına mübarizə aparırdı, mitinqlərinə də çox adam toplaya bilmirdi, daha çox qapalı zallarda çıxışlara üstünlük verirdi. Buna rəğmən, Kamal Kılıçdaroğlunu təbrik etmək lazımdır. Buna baxmayaraq, cüzi fərqlə də olsa, qələbə Ərdoğanındır. Doğrudur, qütbləşmə var, ancaq bir neçə aydan sonra kimsə bu nəticələri müzakirə etməyəcək. Hamının yadında o qalacaq ki, Ərdoğan qələbə çaldı və prezidentin səlahiyyətləri artdı.

Referendumun Türkiyənin taleyi baxımından nələr vəd etdiyinə gəldikdə, bu gün heç kim prezidentlik sisteminin uğurlu və ya uğursuz olacağını proqnozlaşdıra bilməz. Bu sistemin necə işləyəcəyini, Türkiyəni irəliyə və ya geriyə aparacağını yaxın illər göstərəcək".

**Politoloq Şahin Cəfərli isə qeyd edib ki, nəticələrlə bağlı mübahisələrin, şübhələrin olması təəssüf doğurur. Total pozuntulardan söhbət gedə bilməz, lakin səslərin bir-birinə bu qədər yaxın olduğu bir tabloda lokal pozuntuların yekun nəticəyə həlledici təsiri ola bilər:** "Yaxşı olardı ki, bütün şikayətlər obyektiv araşdırılsın və hər hansı legitimlik problemi olmasın. Amma belə bir araşdırmanın olmayacağı bəllidir. Konstitusiya toplumun yüzdə yüz olmasa da, böyük hissəsinin üzərində uzlaşdığı ictimai müqavilə xarakteri daşımalıdır. 51%-lə qəbul olunan Ana Yasa, başqa sözlə, dövlətin xalqın az qala yarısının qəbul etmədiyi bir əsas qanunla idarə olunması nonsensdir və uzunmüddətli sabitliyə səbəb ola bilməz. Gələcəkdə yeni bir konstitusiya dəyişikliyinin gündəmə gəlmə ehtimalı böyükdür. Fövqəladə vəziyyət rejimində referenduma gedilməsinə, dövlətin bütün imkanlarının "evet" üçün səfərbər olunmasına, total birtərəfli təbliğata, tərəflərə bərabər imkanların yaradılmamasına, "hayır" üçün kampaniya aparan sağçı siyasətçilərin ciddi basqılara məruz qalmasına baxmayaraq, xalqın təxminən yarısı "yox" dedi. Bu, Türkiyədə avtoritarizmə, diktatura meyllərinə qarşı müqavimət potensialının olduğunu göstərir və önəmlidir. Təzadlı bir durum yaranıb: Türkiyə Ankaranın, İstanbulun, İzmirin qəbul etmədiyi, ölkə üzrə ÜDM-in az qala 90%-ni verən böyük şəhərlərin, sənaye mərkəzlərinin "yox" dediyi konstitusiya ilə idarə olunacaq. Ərdoğan Türkiyə siyasətində ağırlığını qoruyur və referendumda "evet" deyənlər konstitusiya dəyişikliyinə yox, məhz Ərdoğanın personasına səs verdilər. Bir daha ortaya çıxdı ki, separatçı və narazı kürdlərin təmsilçisi olan siyasi partiya Türkiyənin reallığıdır. HDP liderlərinin həbsinin və HDP-li bəzi bələdiyyə başqanlarının vəzifədən uzaqlaşdırılmasının hər hansı siyasi effekti olmadı və kürd seçicilərin bu partiyadan üz döndürməsinə gətirib çıxarmadı. O da bəlli oldu ki, 2019-cu il prezident seçkiləri Ərdoğan üçün heç də asan olmayacaq. Onun ya milliyyətçilər, ya da kürdlərin-iki antaqonist tərəfdən birinin timsalında etibarlı müttəfiqə ehtiyacı var".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirib ki, referendumun demokratik, ədalətli və şəffaf keçirilməsinə heç bir şübhə yoxdur. Nəticədən asılı olmayaraq belə yüksək səviyyəli seçki keçirilməsinin özü artıq türk-İslam dünyasının uğurudur:** "Referendumda Türkiyə xalqının iradəsi "evet" oldu və qardaş cümhuriyyətimiz yeni dönəmə qədəm qoydu. Biz AĞ Partiya olaraq Türkiyə xalqını bu seçimlə bağlı təbrik edirik. Əminik ki, bu nəticə Türkiyəni dünya siyasi səhnəsində daha güclü dövlət halına gətirəcək. Biz AĞ Partiya olaraq hər zaman "Güclü Türkiyə, güclü Azərbaycan deməkdir" düsturuna inanmışıq və bunun belə olduğunu tariximiz bizə dəfələrlə sübut edib. Türkiyəmizi və bütün türk-İslam dünyasını təbrik edirik".

❑ **Etibar SEYİDAĞA**



## Almaniyada türk-müsəlman miqrantlara təhlükə varmı...

**İlham Həsən: "İstər alman vətəndaşları, istərsə də müvəqqəti də olsa burada yaşayan, xüsusilə müsəlmanlar da daxil, digər vətəndaşlar hüzurlarının pozulmasına biganə qala bilməz"**

**Almaniyanın Dortmund şəhərində yerli futbol klubunun oyunçularını daşıyan avtobusun yaxınlığında terror aktı törədilməsindən bir həftə keçdi. Aprelin 11-də qırğız əsilli radikal islamçı gəncin həyata keçirdiyi 3 partlayış nəticəsində yaralananlar olub.**

Dortmunddakı terror hadisəsindən keçən bir həftədə polis-təhlükəsizlik qaydaları ciddiləşibmi? Almaniyada müsəlmanlara münasibətdə bu hadisə mənfiyə doğru dəyişikliyə səbəb olubmu və narahatlığa əsas varmı? Almanlar müsəlmanlara qucaq açmaqlarından peşmandırmı?

Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin (AKM) rəhbəri, **20 ildən artıqdır Almaniyada siyasi mühacirətdə yaşayan İlham Həsən** "Yeni Müsavat"a bildirdi ki, terrorun nə dini, nə də milləti olmadığını alman cəmiyyəti də bilir. Çox təəssüflər olsun ki, bəzi böyük dövlətlər terroru yaradan səbəbləri ortadan qaldırmaq əvəzinə, hədəflərinə çatmaq üçün yeni terror təşkilatları yaradır və ya mövcud olan terror təşkilatlarına dəstək verir: "Alman xalqının bu hadisədən etkilənməsinə gəlincə, əlbəttə, bir az narahatlıq var. Xüsusilə bir ildə milyondan artıq qaçqın qəbul etmiş bir ölkənin vətəndaşları olaraq, humanistlik edib bu qədər insana qucaq açıbsa və bu ölkəyə sığınan birinin dövlətə, xalqa zərər verməsindən təəssüf hissi keçirməyə bilməz. Amma bu hadisə də əvvəlkilər kimi kütləvi etirazlara, ciddi çəkişmələrə səbəb olmadı. Almaniyanın böyük dövlət olma özəlliyinin biri də dövlətçilik gələnəyinin olması və xalqın polisinə güvənməsidir. Zatən alman polis sistemi Avropada və demək olar ki, dünyada ən güclü sistemə sahibdir. Ona görə alman hökumətinə əlavə genişmiqyaslı tədbir görməyə ehtiyac yoxdur. Bütün dünyada terrorun pik həddə olduğu bir vaxtda, təbii ki, alman polisi də sayıqlığını artırmaq məcburiyyətindədir".

**İlham Həsən qeyd etdi ki, almanlar sivil və inkişaf etmiş bir xalq olduğu üçün bu cür hadisələri xırda bir aşırı milliyyətçi kəsim xaric, soyuqqanlılıqla qarşıladı, dövlətinə və seçdiyi hökumətinə də inandığı üçün ciddi narahatlıq keçirmədi:** "Amma istər alman vətəndaşları, istərsə də müvəqqəti də olsa burada yaşayan, xüsusilə müsəlmanlar da daxil, digər vətəndaşlar bu cür olaylara görə narahat olur və hüzurlarının pozulmasına biganə qala bilməz. Aşırı milliyyətçi kəsimdən ola bilsin ki, kiməsə hansısa formada bir təpki olsun, amma mən gündəlik təmasda olduğum almanlarla münasibətdə buradakı müsəlmanlara qarşı dəyişiklik hiss etmirəm. Demokratik ənənələrə sahib hüquq dövlətinin üstün cəhətlərindən məhz biri də odur ki, xalq seçdiyi hökumətə güvənir və ona nəzarət edə bilir. Ona görə dövlətini, xalqını, övladlarının gələcəyini düşünən hər bir soydaşımız vətənimiz Azərbaycanda da hüquqi bir dövlətin qurulması üçün mübarizə aparmalıdır. Almaniyadakı bu sistemin öz vətəndaşlarına, ümumilikdə insanlara verdiyi dəyəri görən, yaşayan biri kimi arzu edərdim bu dəyərləri Azərbaycanımızda, bütün türk və müsəlman dünyasında görək".

❑ **Etibar SEYİDAĞA**



## Moskva görüşündən sonrakı Suriya səssizliyi - Ağ Ev Kremllə anlaşdımı..

**Reks Tillersonin kritik Rusiya səfərinin pərdəarxası haqda ilginc mülahizələr; politoloq: "Moskvanın Vaşinqtondan ən böyük gözləntisi Amerikanın İŞİD-lə mübarizəyə başlamasıdır"**

**Amerika Birləşmiş Ştatlarının dövlət katibi Reks Tillersonun Moskva səfəri və Rusiya prezidenti Vladimir Putin, həmçinin XİN rəhbəri Sergey Lavrovla saatlarla davam edən müzakirələrdən sonra Suriyadakı gərginlik xeyli səngiyib. Bəzi müşahidəçilər bunu Vaşinqtonla Moskva arasında anlaşmanın əldə olunması ilə izah edirlər.**

Düzdür, danışıqlardan sonra anlaşmanın olmasını təsdiqləyən hər hansı açıqlama olmadı. Belə ki, ABŞ diplomatı "Bəşər getməlidir" şərtini dilə gətirdiyi halda, Rusiyanın qəti mövqeyi olmadı.

Lakin görünən budur ki, Suriyada nisbi sakitlik hökm sürür. Bu, "tufanqabağı sakitlik" görüntüsünə də bənzəyir. Hər halda, yaxın zamanlarda bir sıra məsələlərdə aydınlığın yaranması mümkündür. Bəzi ekspertlər Suriyaya qarşı sərt mövqe tutmaqla Rusiyanı qəzəbləndirən prezident Trampın bununla özünə qarşı şübhələri aradan qaldırmaq istədiyini iddia etdilər. Ancaq əksini düşünənlər, iki supergücün müharibə Astanasında olduğunu deyənlər də var. Hər halda, ABŞ tanklarının Moskvanın 700 km-liyində, Baltikyanı ölkələrdə olması da sadə məsələ deyil. Rusiya isə raketlərinin 97 faizinin döyüş hazırlığı vəziyyətinə gətirildiyni bəyan edib.

Ancaq bu ərəfədə ABŞ-ın Şimali Koreyaya qarşı daha sərt mövqe sərgiləməsi də diqqət çəkir. "Şər üçbucağı"nın üzvünə qarşı Vaşinqtonun son təhdidi də nəzərdən qaçmamalıdır. "Şimali Koreyanın ballistik raket sınağına cavabı veriləcək"- ABŞ prezidentinin müşaviri Herbert Makmaster bildirib. Zahirən belə görünür ki, Suriyadakı sakitlik Şimali Koreyaya diqqətin artması ilə də əlaqəli ola bilər.

**Politoloq Elxan Şahinoğlu isə Vaşinqton-Moskva gərginliyinin son dəyişdiyini düşünmür:** "Əslində ABŞ dövlət katibi Reks Tillersonun Rusiyaya ilk rəsmi səfəri iki ölkə arasındakı heç bir fundamental problemi həll etmədi. Tərəflər öz mövqelərində qaldılar. Buna baxmayaraq, Vaşinqtonla Kreml arasında dialoq rəsmən başladı və Rusiya prezidenti Vladimir Putin amerikalı diplomatı qəbul etdi. Halbuki son saata qədər belə bir görüşün baş tutub-tutmayacağı bəlli deyildi. Reks Tillerson Moskvaya səfərdən bir gün öncə İtaliyada "böyük yeddilər"in xarici işlər nazirlərinin görüşündə belə bir fikir işlətmişdi ki, Rusiya ya Qərbin, ya da Bəşər Əsəd, İran və "Hizbullah"ın yanında olmalıdır. Bu, faktiki ultimatum idi. Əgər Tillerson bu ultimatumu Moskvada təkrarlasaydı, Putin onu qəbul etməyəcəkdi. Yəni Tillerson rusiyalı həmkarı Sergey Lavrovla görüşüb geri dönəcəkdi. Ancaq Tillerson Moskvada daha yumşaq dil seçdi və Rusiya paytaxtında təmas nöqtələri axtarmaq istədi. Buna görə də Putin onu qəbul etdi. Bu, Putinin amerikalı həmkarı Donald Trampa mesajı idi ki, "dialoqa hazıram". Bunun nəticəsidir ki, Tillerson Moskvanı tərk etdikdən sonra Tramp belə bir ifadə işlətdi: "Mən inanıram ki, Rusiya ilə münasibətlərimiz yaxşı olacaq". Bu açıqlama isə həm Rusiya, həm də beynəlxalq aləmə ünvanlanmışdı. Çünki Amerika Suriya ərazisini raket atəşinə tutduqdan sonra böyük dövlətlərin qarşıdurmasından, hətta nüvə toqquşması təhlükəsindən danışılırdı".

**Politoloq hesab edir ki, Tillersonun Moskvaya səfəri, onunla Putinlə görüşü və ardından Trampın yumşaq açıqlaması ortamı yumşaltdı:** "Buna baxmayaraq, Reks Tillersonun Moskvaya səfəri iki ölkə arasındakı prinsipial fərqi ortadan qaldırmır. Rusiya Əsədə dəstəyini davam etdirir, ABŞ isə onu devirməyə çalışır. Tərəflər ortaq məxrəc tapa bilmirlər. Ancaq bir formul var ki, bu iki böyük dövlət arasındakı Suriya mövzusunda gərginliyi azalda bilər. Kremlə Əsədi öz ətrafından əvəz edə biləcək fiqur axtarışına başlamaq təklifi edilib. Elə Tillerson da Moskvada bir cümlə ilə ona işarə etdi ki, Əsədin bir başqasıyla əvəz olunmasına etiraz etmirlər. Moskva üçün önəmli olan Əsədi əvəz edəcək şəxsin Rusiya ilə strateji tərəfdaşlığı davam etdirməsi, Rusiyanın bu ölkədəki hərbi bazalarının varlığını sürdürməsidir. Məncə, Vaşinqton buna etiraz etməz. Ancaq Moskvanın qorxusu odur ki, Suriya rejimi Əsədsiz dağıla bilər. Həqiqətən Yaxın Şərqin avtoritar rejimləri bir nəfərin iradəsinə bağlıdır. Səddam Hüseyn var idi, İraq bütöv idi, elə ki, onu yıxdılar, ölkə dağıldı, İŞİD meydana gəldi. Eyni sözlər Liviya diktatoru Müəmmarı Qəzzafiyə aiddir. Moskva eyni ssenarinin Suriyada təkrarlanmasını istəmir. Ancaq Moskvada onu da nəzərə alırlar ki, Bəşər Əsədi əbədiyyətə qədər qoruya bilməyəcəklər, ölkə bir neçə hissəyə bölünüb, Əsədə bağlı ordu silahlı müxalifət və terrorçular üzərində qələbə çalmaqda acizdir". **E.Şahinoğlunun fikrincə, Rusiya terrorçularla təkbaşına savaşmaq istəmir və ona tərəfdaş dövlətlər lazımdır:** "Tərəfdaş dövlətlərin bir qismi isə Suriyada terrorçularla bir şərtlə mübarizə apara biləcəklərini deyirlər ki, Əsəd hakimiyyətdən getsin. Fikrimcə, Tramp Əsədi devirmək üçün prosesləri çox da sürətləndirməyəcək. Moskvanın Vaşinqtondan ən böyük gözləntisi Amerikanın İŞİD-lə mübarizəyə başlamasıdır. Məsələn, Tramp Suriyanı raket atəşinə tutduqdan sonra keçdi başqa məkanlara. ABŞ ən ağır bombasını Əfqanıstana ataraq terrorçuların dağlardakı yuvasını dağıtdı. Bəlkə də Əfqanıstana atılan bomba terrorçulara ciddi zərər vurmayıb. Bu bombardman Trampa siyasi səbəbdən lazım idi. Bu bombardman prezident Donald Trampa ona görə lazım idi ki, o, düşməninin yalnız Bəşər Əsəd olmadığını, bütün terrorçulara qarşı amansız mübarizə aparacağını göstərsin. Yəni demək istədi ki, dünən Suriya, bu gün Əfqanıstan, hər yerdə varıq. Tramp göstərdi ki, o, Əsədlə yanaşı, Əfqanıstandakı terrorçulara qarşı da qəti addımlar atmağa hazırdır. Əgər Trampın Suriya ərazisini raket atəşinə tutmasını Kreml tənqid etdisə, Əfqanıstana atılan bombaya etiraz etmədi. Çünki bu dəfə hədəf terrorçular idi".

❑ **Cavid TURAN**

## "Rusiya Qərblə savaşarsa, kiçik ölkələrin hamısına təhlükə yaranacaq"

**Sahib Kərimli: "Kremlin Azərbaycana təzyiqləri azala və ya arta bilər, amma..."**

**Son illərdə Rusiya-Amerika münasibətləri kəskin şəkildə pisləşməyə doğru gedir. Çoxları Donald Trampın ABŞ prezidenti seçilməsindən sonra əlaqələrin bərpa olunacağını düşünürdü. Amma tam əksi oldu. Xüsusilə bu ayın əvvəllərində Suriyada baş verən hadisələr hər iki dünya gücünü üz-üzə qoyub.**

Ekspertlərin Azərbaycan acısından məsələyə baxışları müxtəlifdir. Rusiya-Amerika münasibətlərinin soyuq olmasının ölkəmizin xeyrinə olduğunu düşünənlər də var, bunun əksini deyənlər də.

Birincilərin əsas arqumentləri ondan ibarətdir ki, şimal qonşumuzun Qərblə münasibətləri nə qədər kəskinləşsə, bir o qədər Kremlin Azərbaycana qarşı təzyiqləri azalır. Bir növ proseslərin bu şəkildə davamının Rusiyanın Cənubi Qafqaza nəzarət imkanlarının əlindən çıxa biləcəyini proqnozlaşdırırlar.

İkincilərin isə arqumentləri Rusiyanın təklənməsi fonunda Cənubi Qafqaza daha çox təhlükələrin yarana biləcəyi ilə bağlıdır. Çünki rəsmi Moskva Cənubi Qafqaz ölkələrinə nə qədər təzyiq etsə də, etiraf etmək lazımdır ki, bu, bölgənin təhlükəsizlik qarantiyasıdır.

**Siyasi ekspert Sahib Kərimli** hesab edir ki, savaşın olacağı təqdirdə kiçik ölkələrin hər biri təhlükələrlə üz-üzə qala bilər: "Böyük güclərin qarşıdurması ortadadır. Özləri üçün ciddi risklər də var, buna görə çox irəli gedəcəklərinə inanmıram. Yəni haqqında son vaxtlar danışılan 3-cü dünya müharibəsi məsələsini önləyən amillər mövcuddur. Dialoq mühiti qorunur, sadəcə, maraqlardan güzəşt etmək istəyi olan tərəf bilinməlidir. Bu da gücə bağlı məsələdir. Savaşın olacağı təqdirdə, bütün kiçik ölkələr kimi, bizim də ciddi risklərlə üzləşəcəyimiz təbiidir. Kremlin ölkəmizə təzyiqləri azala və ya arta bilər, amma yox olacağı mümkünsüzdür. Azərbaycan durmadan çalışmalıdır ki, əhəmiyyətli və tərəflərlə dialoqu saxlayan ölkə olaraq özünü tam təsdiqləsin. Çox həssas dönəmdir, cəmiyyətin mümkün potensialını ölkənin təhlükəsizlik işinə cəlb etmək lazımdır. Hakimiyyət sosial ədalət məsələsini, daxili siyasəti unutmamalıdır. Ədalətsizlikdən xarici düşmən güclər istifadə edə bilər".



❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 80 (6694) 18 aprel 2017







# KTMT-yə baş katibliyi alan Ermənistanın "dili" uzanıb-savaş ritorikasına cavab məqamı yetişir

## Şuşa və Laçının işğal olunmasının "25 illik tədbirləri"ni qeyd etməyə hazırlaşan düşməni peşman edə bilərik; **Zahid Oruc:** "Əgər mayda növbəti toqquşmanın şahidi olsanız, Kremldən hər hansı reaksiya olmasa, Xaçaturov kabinetində mürgüləyəcək"

**Rusiyadan "İsgəndər" raket komplekslərini "pay" alandan sonra faktiki olaraq danışıqların XİN rəhbərləri səviyyəsində davamından da imtina etmiş işğalçı Ermənistan son zamanlar həyasızlığının növbəti mərhələsinə start verib.**

Şübhə yoxdur ki, düşmən ölkənin bu davranışı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına baş katibliyi rotasiya qaydasında ələ alması ilə bağlıdır. Qurumdakı bəzi dövlətlərin reveransları nəticəsində yarım il ərzində bu postu almaq hüququndan məhrum olan İrəvan, silahlı qüvvələrin sabiq baş qərargah rəisi 65 yaşlı general-polkovnik Yuri Xaçaturovun, nəhayət, Nikolay Bordyujanı əvəzləməsinə nail oldu. Ancaq elə bundan sonra düşmən "qan-qan" deməyə başlayıb. Azərbaycanın işğal altındakı Ağdam rayonu ərazisində hərbi təlimlər keçirən Ermənistan daha sonra ölkəmizi "Verba" raketləri ilə təhdid etməyə başladı. Bugünlərdə isə daha bir təhdid bəyanatı eşidilib, özü də Moskvadan. Rusiyadan alınmış "İskəndər" raketləri artıq Ermənistan ərazisində döyüş növbəsindədir. İstiPress-in məlumatına görə, bu barədə Ermənistanın Rusiyadakı səfiri Vardan Toqanyan Moskvada "İnerfaks"a müsahibəsi zamanı bildirib. "Uzunmüddətli perspektivdə yeni partiya silahların gətirilməsinə gəldikdə isə bu məsələ müzakirə rejimindədir",- deyə Vardan Toqanyan vurğulayıb. Beləliklə, məlum oldu ki, bu raketlər Ermənistan ərazisində və Ermənistan silahlı qüvvələrinin balansındadır. Ancaq V.Toqanyanın sözlərinə görə, Ermənistan bu silahdan istifadə üçün Moskvadan icazə almayacaq. Bundan əvvəl erməni general-mayor Arkadi Ter-Tadevosyan da Gəncə və Mingəçevirin hədəf olacağı haqda sərsəmləmişdi.

**Azərbaycan Müdafiə Nazirliyindən bu kimi məsələlərə, həmçinin düşmənin "Verba" ilə bağlı təhdidinə reaksiya verilməyəcəyi bildirildi. Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov isə İstiPress-ə Azərbaycanın cavabının qat-qat dağıdıcı ola biləcəyini vurğulayıb. Onun sözlərinə görə, Mingəçeviri və Gəncəni vurmağa risk etmək Ermənistan üçün intihar addımı ola bilər:** "Bircə risk edib düyməni bassınlar. Azərbaycanın Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusu bütün Ermənistanı yerlə yeksan etməyə qadirdir. Əgər Ermənistan belə bir addım atarsa, Azərbaycan heç nəyə baxmayacaq və Ermənistanı yerlə yeksan edəcək". Ekspertə görə, Ermənistan "İsgəndər"dən atəş açmağa çalışsa, Azərbaycan həm Qarabağda antiterror əməliyyatları aparmağa, həm də Ermənistana qarşı kütləvi raket zərbələri endirməyə şans qazanar.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Xaçaturovun təyinatı Ermənistan hakimiyyətinə ictimaiyyəti müharibə xofundan qismən də olsa, xilas etmək, erməni mətbuatına isə sözdə "əzələ nümayişi" üçün əlavə təbliğat imkanları verəcək:** "Bu təyinatı Moskvanın ermənilərə seçki hədiyyəsi kimi də qəbul etmək olar. Amma bu hədiyyə Ermənistan üçün yalnız qutudan ibarətdir. Qutunun içərisindəki isə Rusiyanın maraqlarıdır. Bu maraqlar Moskvanın diktəsinə uyğun olaraq nəzərə çarpacaq. Kreml ermənilərə qısa müddətə olsa da belə sevinmələri üçün rəngli, şəkilli qutu hədiyyə edib, vəssalam. Xaçaturovun təyinatını bundan artıq qiymətləndirmək olmaz. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi postu siyasi vəzifədir. Baş katibin müstəqil qərar qəbul etmək hüququ yoxdur. O, sadəcə, KTMT-nin aparatına rəhbərlik edir, qurum üzvlərinin müxtəlif formatlarda görüşlərini təşkil edən əlaqələndirici funksiyasını yerinə yetirir. KTMT-nin birləşmiş qərargahlarının rəisi general-polkovnik Anatoli Sidorovdur. Doğrudur, bu qurumun adı "birləşmiş hərbi qərargahlar" olsa da, kimin necə və harada birləşdiyi kimsəyə bəlli deyil. Elan olunmasına baxmayaraq, KTMT-də nə vahid hərbi komandanlıq, nə də vahid hərbi kontingent var. Hər şey kağız üzərindədir. Elə Xaçaturovun təyinatı da kağız üzərindədir. Xaçaturov Gürcüstanda doğulub. Əfqanıstanda döyüşüb. Azərbaycan torpaqlarının işğalında fəal iştirak edib. Qeyd edim ki, KTMT-nin birləşmiş qərargahlarının rəisi general-polkovnik Anatoli Sidorov da Əfqanıstan müharibəsi veteranıdır. Xaçaturov vaxtilə Ermənistan ordusunun baş qərargah rəisi təyin olunmasında və KTMT-nin baş katibi seçilməsində Sidorovun müstəsna xidmətləri olduğu bildirilir. Xaçaturov 2016-cı il oktyabrın 3-dən Ermənistan Təhlükəsizlik Şurasının katibi olub. Şübhəsiz ki, Xaçaturovun təyinatı müsbət heç bir şey vəd etmir. Erməni generalı fəaliyyətdə olduğu müddətdə KTMT üzvü olan dövlətlərlə Azərbaycanın münasibətlərini korlamaq üçün maksimum səy göstərəcək. Bu təyinat, həmçinin Rusiyanın Azərbaycanın KTM-yə üzvlüyü ilə bağlı bütün "dəvət"lərinin üzərindən də xətt çəkir. Görünür, Xaçaturovun təyinatının gecikdirilməsinin səbəblərindən də biri Kremlin hansısa gözləntiləri ilə bağlı olub. Bununla yanaşı, mən Qazaxıstan və Belarusun Xaçaturovun əl-qol atmasına imkan verməyəcəyini də düşünürəm. Hesab edirəm ki, erməni generalın hər hansı bir uğursuz bəyanatı, yaxud davranışı KTMT daxilindəki ziddiyyətləri daha da kəskinləşdirə bilər. Xaçaturovun təyinatı birmənalı olaraq siyasi xarakterlidir. Azərbaycanın işğal altında olan torpaqlarında baş verə biləcək hər hansı bir toqquşma, yaxud danışıqlar prosesində nəzərəçarpacaq geriləmə və ya irəliləyiş bu təyinatla bağlı olmayacaq.

**Ermənistan hava hücumundan müdafiə qoşunlarının rəis müavini polkovnik Artur Poqosyanın ölkəsinin "Verba" daşınan zenit-raket kompleksləri əldə etməsi iddiasına cavab olaraq hərbi mütəxəssis, ehtiyatda olan polkovnik Kamal Hüseynov da münasibət bildirib.**

"Ermənistandan fərqli olaraq, ölkəmizin maliyyə potensialı ordumuz üçün kifayət edəcək miqdarda ən müasir silah, döyüş texnikası alınması ilə yanaşı, həm də hərbi-sənaye kompleksinin inkişaf etdirilməsinə imkan verir. Poqosyan onu da dərk etməlidir ki, hazırda dünyada aparılan müasir müharibələrin səviyyəsi və formatı dəyişərək artıq zehni inkişaf səviyyəsində olan silahların tətbiqinə üstünlük verilir. Bunu isə aprel döyüşləri zamanı Azərbaycan ordusu sərəncamında olan ən müasir və məhvedici gücə malik silahların bir qismini tətbiq etməklə bir daha təsdiq etdi. Bir sözlə, əgər məlum hərbi lətifəni bir qədər başqa şəkildə ifadə etsək, Ermənistandakı "Verba"lar "yəqin ki, ərazini örtəcək, amma müdafiə edə bilməyəcək"-polkovnik xəbərdarlıq edib.

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc isə "Yeni Müsavat"a bildirdi ki, Yuri Xaçatutovun baş katib təyinatının Ermənistanın Kollektiv Təhlükəsizlik modeli çərçivəsində hərbi mənafelərinin təminatına heç bir təsiri olmayacaq:** "Çünki qərarverici orqan və şəxslər tamam başqa yerdə - prezidentlər klubunda yerləşir, orada isə vəziyyət tamam başqadır. Hazırda Rusiya Amerikanin yeni administrasiyasının hansı kursu seçəcəyini təyin etməyə çalışır. Suriyada kimyəvi silah işlədildiyinə dair məlum avantüranın nəticəsində hava limanının vurulması ilə vəziyyət daha da mürəkkəbləşib. Türkiyə iştirak etdiyi üçlü ittifaqdakı yerində yenidən aktivləşməyə cəhd edir. Moskva isə Vaşinqtona qarşı müxtəlif çəkindirici ismarışlar göndərir. Belə şəraitdə bağlı qapılar arxasında Putinin öz MDB-li həmkarlarından hansı tələbləri etdiyini söyləmək o qədər də çətin deyil". **Deputatın fikrincə, Rusiya beynəlxalq maraqlarını qorumaq üçün kollektiv hərbi-siyasi qüvvələrdən bir çətir kimi istifadə etməyə çalışacaq:** "Ona görə də Ermənistanın dövlət maşını protokol rotasiyası hadisəsini nə qədər mühüm hadisə kimi təqdim etsə də, İrəvanın təhlükəsizliyi bundan xüsusi heç nə qazanmayacaq və qurum daxilindəki gərginlik aradan qalxmayacaq. Xaçaturovun vəzifəsi icraedici xarakter daşıyır və onun sərəncamında sayı yüz minlərlə ölçülən döyüşçü yoxdur ki, o, həmin silahlı dəstələri harasa yollasın. Nə qazaxlar, nə qırğızlar, nə də belaruslar Ermənistanın təhlükəsizliyini özlərinin milli mənafelərinin ayrılmaz hissəsi hesab etmir və gəlib ermənilərlə çiyin-çiyinə Azərbaycana qarşı vuruşmayacaqlar".

**Müharibə ehtimalına gəldikdə, Z.Oruc qeyd etdi ki, Qarabağ münaqişəsi yenidən alovlansa belə, Xaçaturov amili burada heç bir müsbət-mənfi rola malik deyil:** "Məgər Bordyuja bizim dostumuz idi? Azərbaycan torpaq bütünlüyü uğrunda mübarizəsini apararkən Ermənistanın yer aldığı istənilən qurumdan daha çox tərəfdar və dost tapa bilir. Aprel hadisələri buna sübutdur. Əgər mayda növbəti toqquşmanın şahidi olsanız, Kremldən hər hansı reaksiya olmasa, Xaçaturov kabinetində mürgüləyəcək".

Görünən budur ki, 2 apreldəki total saxtakarlıqla parlamenti qəsb edən Ermənistanın hakim partiyası hökuməti formalaşdırmaq və prezidenti seçmək şansını əldə etməklə həm də müharibə ritorikasını davam etdirməkdə qərarlıdır. Amma bəlkə bu, Azərbaycan üçün daha məqbul yoldur. Hər halda, mənasız danışıqlardansa, vaxtın itirilməsindənsə, düşmənlə döyüş meydanında üz-üzə gəlib torpaqları qəti qələbə ilə azad etmək şansı yaranır. Levon Ter-Petrosyanın dediyi kimi, əgər güzəştli sülh fürsətindən yararlanmasa, Ermənistanı faciəli gələcək gözləyir...

Azərbaycan ordusunun 16 apreldən başlayan genişmiqyaslı, 30 min canlı qüvvəni, yüzlərlə hərbi texnikanı əhatə edən hərbi təlimlərini də bəzi ekspertlər növbəti döyüşün baş sınağı kimi dəyərləndirir. Xatırladaq ki, 8 mayda işğalçı Şuşanın, bir həftə sonra isə Laçının işğalının 25 illiyini təntənəli şəkildə qeyd etməyə hazırlaşır. Azərbaycan isə düşmənin bu cür həyasız davranışlarına sonadək dözmək niyyətində deyil. Bu mənada may ayı baş verənlərə görə "aprel döyüşlərini" düşmənə unutdura bilər...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 80 (6694) 18 aprel 2017

# Müalicə olunmaq istəməyən psixoloji xəstəni... nə etməli?

## 15 yaşlı qızını öldürən atanın timsalında ilginc faktlar

**Son günlər cəmiyyətdə ən çox müzakirə olunan mövzulardan biri də Xırdalanda 15 yaşlı qızı Aygün Cabbarovanı xüsusi amansızlıqla işgəncə verərək öldürməkdə təqsirləndirilən atanın hekayəsidir. Ağdam rayon sakini, 1962-ci il təvəllüdlü Nəsib Cabbarovun cinayət işi üzrə məhkəmə başlayıb. Bakı Ağır Cinayətlər Məhkəməsində gedən proses zamanı qatil ata ifadəsində bildirib ki, hadisə zamanı şokda olub: "Mən Bakıya necə gəldiyimi də bilmirəm. Ağdamda yaşayırdım. Ötən il aprel döyüşləri zamanı kənddə idim. Atılan qranatlar düz 200 metr yaxınlığıma düşüb. Ondan sonra başımda problemlər var. Vallah, heç bilmirəm ki, Bakıya necə gəlmişəm. Qızı da götürüb gəlmişdim".**

**Məhkəmədə şahid qismində Zəhra Əliyarova dindirilib. O bildirib ki, təqsirləndirilən şəxs qardaşıdır:** "Aprel döyüşlərində qardaşımız başından xəsarət alıb. Burda məscidlərə apardıq. Gördük düzəlmir. Daha sonra həkimin yanına apardıq. Dərmanlarını aldıq. Müalicə alırdı. 3-4 ay idi, bizlə qalırdı. Qızlar istəyirdi ki, rayona qayıtsınlar. Nəsib qoymurdu. Deyirdi, uşaqlar gedəcək, ermənilər onları öldürəcək. Hadisədən 2 gün qabaq dərmanları qurtarmışdı. Qızlar da paltarlarını yığmışdı. Səhər tezdən qardaşımla yemək yedik. Qəribə idi. Mən evdən çıxıb mağazaya getdim. Həmin vaxt olub hadisə. Girib qızı öldürüb. Amma qızını namus üstündə öldürməsi yalandır. Qardaşımın başında problemləri olub. Hətta bizə gələndə deyirdi ki, mən bu yolu tanıyıram, indi başqa yoldan gəlir. Onda bildim ki, qardaşımda ciddi problemlər var".

Həm təqsirləndirilən şəxsin, həm də yaxınlarının ifadəsindən belə məlum olur ki, adamın ciddi psixoloji problemləri olsa da, normal şəkildə müalicə olunmayıb, kurs müalicəsi götürməyib. Əvəzində pirlərə, ziyarətgahlara aparılıb. Nəticə isə göz qabağındadır: 15 yaşlı məsum bir qızcığazın qətli. Amma burada çox daha maraqlı məqamlar var. Qanunla bu şəxs məcburi şəkildə müalicə olunmalıdırmı? Onu kimin şikayəti əsasında məcburi şəkildə müalicəyə apara bilərlər? Bu işin forması, qanunla tənzimlənməsi necədir?

**Psixiatr Orxan Fərəcli bildirdi ki, "Psixiatriya yardımı haqqında" Qanuna əsasən şəxs aşağıdakı hallarda məcburi, yəni, məhkəmə qaydasında xəstəxanaya yerləşdirilə bilər:** "Özü və ətrafdakılar üçün təhlükəlidirsə, psixi vəziyyəti ilə əlaqədar öz tələbatlarını ödəyə bilmirsə və əlavə olaraq ona psixi yardım göstərilmədiyi halda həyatı üçün təhlükə yaranarsa, şəxsi psixiatriya xəstəxanasına yerləşdirmək olar. Amma bu, məcburi müalicə adlanmır.



Məcburi müalicə cinayət edən ruhi xəstələrə tətbiq edilir. Buna qeyri-könüllü hospitallaşdırma deyilir".

**Əməkdaşımızın "cinayət ehtimalı olan xəstələri məcburi hospitallaşdırmaq olmaz" sualına cavabda isə O.Fərəcli dedi ki, bu da mümkündür:** "Qanunda qeyd edilib ki, özü və ətrafı üçün təhlükəli olan xəstələr məhkəmə qaydasında xəstəxanaya yerləşdirilə bilər. Sadəcə, kimin təhlükəli olduğunu əvvəlcədən müəyyən etmək çox çətindir".

İndi isə qanundakı bəzi məqamlara diqqət edək. Belə ki, qanunun 5-ci, yəni "Psixiatriya yardımının könüllülüyü" maddəsində qeyd olunur ki, şəxsin özü müraciət etdikdə, ona psixiatriya yardımı göstərilir. Bundan başqa, 16 yaşına çatmamış və ya qanunvericilikdə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərə psixiatriya yardımı onların valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı (xahişi) ilə bu qanunla nəzərdə tutulmuş qaydada göstərilir. Sözügedən maddədə o da bildirilir ki, psixiatriya yardımı məlumatlandırılmış razılıq əsasında həyata keçirilir. Bu razılıq hədə-qorxu və zor tətbiq edilmədən alınır, yazılı formada sənədləşdirilir, pasiyentin özü və ya onun qanuni nümayəndəsi və həkim-psixiatr tərəfindən imzalanır.

Qanunun 11-ci maddəsinə diqqət edək. Bu isə qeyri-könüllü psixiatriya yardımı göstərilməsi üçün əsaslar adlanır. Burda da qeyd olunur ki, psixi pozuntunun xarakteri müayinə və müalicənin yalnız psixiatriya stasionarında həyata keçirilməsini tələb edərsə, psixiatriya stasionarında qeyri-könüllü müalicə aşağıdakı əsaslar olduqda təyin edilir: **1.**Psixi pozuntusu olan şəxsin bilavasitə özü və (və ya) ətrafdakılar üçün təhlükəli olması; **2.** Şəxsin psixi pozuntu nəticəsində acizliyi, yəni əsas həyati tələbatını müstəqil təmin etmək qabiliyyətinin olmaması; **3.** Ağır psixi pozuntusu olan şəxsə stasionar yardımın göstərilməməsinin onun sağlamlığına qarşısıalınmaz zərər yetirməsi və müalicəsini mümkünsüz etməsi. **4.** Psixiatriya stasionarında qeyri-könüllü hospitallaşdırılmış pasiyentin müalicəsi məlumatlandırılmış razılıq olmadan aparıla bilər.

❑ **Sevinc TELMANQIZI**

# Hər iki üzvü əlil olan ailə kömək istəyir





## "Hökumətdən normal şəraitli bircə otaqlı ev istəyirik, onsuz da ömrümüz azalır"

**Sabunçu rayonu, Zabrat qəsəbəsində məskunlaşan ailə acınacaqlı durumdadır. İki nəfərlik ailə üzvlərinin hər ikisinin fiziki sağlamlıqdan məhrum olması onların vəziyyətini bir az da çətinləşdirib.**

Astara rayonu Suparibağ kəndində doğulan 1993-cü il təvəllüdlü Orxan Cabbarov II qrup əlildir. O, 8 aydır ki, 1987-cü il təvəllüdlü, I qrup əlil olan Gülnar İsgəndərova ilə ailə qurub. Onlar yaşamaq üçün heç bir şəraiti olmayan birotaqlı daxmada kirayədə qalırlar.

Əlilliklərinin səbəbinə gəlincə, Orxan hərbi xidmətdə olarkən miapatiya xəstəliyinə tutulub. Həyat yoldaşı isə uşaqlıqdan polimelit xəstəliyindən əziyyət çəkir. Xəstəlikləri fərqli olsa da, ikisi də yeriməkdə çətinlik çəkirlər. Gülnarın ayaqları, Orxanın isə bütün oynaqları yavaş-yavaş sıradan çıxır.

"Yeni Müsavat"ın müxbiri bu ailəyə baş çəkib və onların düşdüyü acınacaqlı durumu işıqlandırıb.

12 kvadrat metrlik, təmirsiz bir evdə yaşayan bu cütlük səhhətlərindəki problemlərdən əziyyət çəkməklə yanaşı, maddi problemlərlə də baş-başa qalıblar.

Orxanın sözlərinə görə, 2012-ci ildə belində yaranan yarıq şah damarını boğub. Buna baxmayaraq, bu vəziyyətində maddi ehtiyaclarını ödəmək üçün ailəsindən xəbərsiz bir müddət fəhləlik edib. Artıq xüsusi tutacaqların köməyi ilə ayağa qalxdığı üçün işləməyə qüvvəsi qalmayıb. Gülnar və Orxanın yeganə gəliri əlil olduqlarına görə aldıqları təqaüddür ki, bunu da topladıqda cəmi 195 manat edir. Onun bir hissəsini kirayə haqqına, bir hissəsini də kommunal xərclərə ayırırlar. Müalicə və ərzaq ehtiyatları üçün isə kiçik bir məbləğ qalır ki, onunla yaşamaq mümkün deyil.





**Orxan deyir ki, bu xəstəliyi hərbi xidmətdə qazansa da, ona mülki əlil statusu veriblər:** "Mən hərbiyə sağlam gedib əlil kimi qayıtmışam. Lakin məni qəsdən mülki əlil kimi qeydə alıblar. Hərbiyə gedən zaman hərbi komissarlıqda və "Papanin"dəki hərbi hospitalda tibbi yoxlamadan keçmişəm. O zaman heç bir xəstəliyim olmayıb, sağlam olmuşam. 5-6 ayın əsgəri olarkən çiynimdə ağrılar başladı. Zaman-zaman kəskin ağrılarım olurdu. Nəticədə belim qatlandı, əllərim və ayaqlarım tutuldu, qollarımın hərəkəti dayandı. Vəziyyətimin pisləşdiyini görüb, məni "Papanin"dəki hospitala göndərdilər. 20 gün orada nevroloji şöbədə xəstə yatdım. Mənə "miapatiya" adlı xəstəlik diaqnozu qoydular. Çox pis vəziyyətdə idim, hətta danışığımı bilmirdim. Üç ay məni müalicə elədilər. Zaman keçdikcə insanları tanımağa, yeriməyə başladım. Bu səbəbdən də sənəd işlərini valideynlərim həll etməli oldu. Atam ustadır, sənət işlərindən başı çıxmadığına görə əlillik statusumu düzgün yazdıra bilməyib. Nəticədə müvafiq qurumlar mənim hərbidə əlil olmamı ört-basdır ediblər. Evə qayıtdıqdan sonra öyrəndim ki, məni mülki əlil kimi qeydiyyata alıblar. Maraqlı odur ki, bir sənəddə mülki xəstə yazıblar, digərində isə mənim 3 il əvvəl müraciət etdiyim qeyd edilib. Əgər mən 3 il əvvəl müraciət etmişəmsə, bəs necə 7 ay hərbi xidmətdə olmuşam? Mənim hərbi xidmətdə olduğumu təsdiq edən- avtomatım, qumbaraatanım hərbi biletimdə qeyd olunub. Üstəgəl, hərbi biletimdə yazılıb ki, hərbi xidmət zamanı (yararsız hesab olunaraq) tərxis olunub. Lakin bütün bu faktlara rəğmən, hərbiyə aid nə varsa hamısından məhrum olundum. 5 ildir ki, mənim haqqım tapdalanır. Nə sığortam, nə də təqaüdüm verilib. Hərbi biletimdə də yazılıb ki, hər şeydən məhrumdur. Bu vəziyyətimə görə mənə köməklik oluna bilər. Ya avtomobil verərdilər, ya ev verərdilər. Hökumət tərəfindən nə isə bir köməklik olardı. Mən vətən üçün xidmətə getmişdim. Ağdamın Yusifcanlı kəndində xidmət aparmışam. Bu xəstəliyim olmasa idi, hərbi xidmətimi orada davam etdirəcəkdim. Bu mənim acı taleyimdir, nə edə bilərəm axı...Yazım bu imiş".

Gülnar İsgəndərovanın vəziyyəti isə daha ağırdır, o uşaqlıqdan polimelit xəstəliyindən əziyyət çəkir. Bundan başqa, pis şəraitdə yaşamaqdan bir çox xəstəliklər də tapıb. Tez-tez huşunu itirdiyini deyən Gülnar həftədə bir neçə dəfə təcili yardım çağırdıqlarını və onların yardımı ilə həyata qayıtdığını deyir. Səbəb isə imkansızlıqdan vaxtlı-vaxtında müalicə ala bilməməsidir.

**Bu xəstəliyin müalicəsinin olmadığını deyən Orxan normal şəraitdə yaşamağı və sağlamlıq imkanlarına uyğun bir iş tapıb işləməyi arzulayır:** "Xəstəliyim kürək nahiyəmdəki yarıqdan başladı. Həmin yarıq da şah damarı boğur. Həkimlər bildirib ki, bir neçə il gəzə biləcəyəm, sonra ayaqlarım tamamilə tutulacaq. Mənə əsəbiləşmək və ağır iş olmaz. Hətta qaynar su ilə yuyunmaq olmaz. Əgər bunlar olsa, bütün hərəkətlərim dayanacaq. İndi iynə-dərmanla günümü keçirirəm ki, yorğan-döşəyə uzanmayım. Hərbidən gələndən sonra vəziyyətim bir az düzəldi. Fəhləlik edib çörəkpulu çıxarırdım. Həkimin təkidindən sonra məcbur dayandım. Ölkə başçısı cənab prezident İlham Əliyevdən, birinci vitse-prezident Mehriban Əliyevadan xahiş edirəm ki, bizə də yardım əlini uzatsınlar. Hazırda kirayə yaşadığımız mənzilin normal şəraiti yoxdur. Normal şəraitli bircə otaqlı ev istəyirik. Onsuz da ömrümüz azalır. Qalan ömrümüzü də rahat yaşamaq istəyirik".

Fiziki imkanları məhdud olan bu iki gənc ümid edir ki, onların problemi ictimailəşdikdən sonra cəmiyyətin və dövlət qurumlarının diqqətini cəlb edəcək və yardımsevər insanlar onlara biganə qalmayacaqlar.

❑ **Məğrur MƏRD**
❑ **Fotolar müəllifindir**

# Siqareti qanun qəbul edilmədən tərk edin-faydalı məsləhətlər

## Qanun qəbul olunmadan da ondan qurtulmaq mümkündür...

**Xəbər verdiyimiz kimi, Milli Məclisin 14 apreldə keçirilən iclasında "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun layihəsi birinci oxunuşda qəbul olunub. Layihədə bildirilir ki, müvafiq icra hakimiyyəti orqanı tütün çəkilməsinin profilaktikası, tərgidilməsi, müalicəsi ilə əlaqədar tədbirlər həyata keçirir. Dövlət tibb müəssisələrində tütün çəkilməsinin müalicəsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.**

Qanun layihəsinin 11-ci maddəsində deyilir ki, tütün istifadəsinin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması, o cümlədən "İnternet" informasiya-kommunikasiya şəbəkəsindən, habelə tütün istifadəsinin dayandırılmasına və tütün asılılığının müalicəsinə şərait yaradan, səhiyyə sahəsində dövlət siyasətinin işlənib hazırlanması və normativ-hüquqi tənzimləmə funksiyalarını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada yaradılmış və fəaliyyət göstərən "qaynar xətlərdən" istifadə yolu ilə həyata keçirilir. Həmin maddədə qeyd edilir ki, Azərbaycanın müvafiq icra hakimiyyəti orqanı tərəfindən vətəndaşların, o cümlədən fərdi sahibkarların və hüquqi şəxslərin vətəndaşların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütün istifadəsinin nəticələrindən qorunması sahəsində qanunvericiliyin pozulması məsələlərinə dair müraciətləri üçün "qaynar xətlər" yaradılması və ya "İnternet" informasiya-kommunikasiya şəbəkəsindən istifadə edilməsi nəzərdə tutula bilər.



### Siqaret çəkən şəxs çəkməyəndən 13-14 il az yaşayır

Siqaret çəkənlər arasında isə indidən "yas başlanıb". Qanun qəbul olunsa, siqaretdən asılılar üçün qara günlər başlanacaq. "Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, bu sahədəki mənzərəni və siqaret çəkənlərlə bağlı ilginc dosyeni nəzərə çatdırır.

Öncə ondan başlayaq ki, siqaret çəkən şəxs çəkməyənlə müqayisədə 13-14 il az yaşayır. 1 siqaret insanın ömrünü 5 dəqiqə 30 saniyə azaldır. Bu gün siqaret xərçəng xəstəliyinin yayılma səbəbinin kökündə durur. Siqaret tüstüsünün verdiyi zərəri atom bombasının ətrafa saçdığı zəhərlə müqayisə edirlər. Siqaretin zərərləri haqda çox danışılıb. Ümumilikdə siqaret bütün orqanizmin fəaliyyətinə çox pis təsir göstərir, həzm sistemini pozur, tənəffüs orqanlarında müxtəlif xəstəliklər yaradır. Ağciyər və qırtlaq xərçənginin yaranma səbəbinin 90%-i siqaretlə bağlıdır. Qan dövranı sistemini pozur. Siqaret çəkənlər arasında çəkməyənlərlə müqayisədə infarkt və infarktdan ölüm halları 10 dəfədən çox müşahidə edilir. Bundan əlavə, siqaret çəkənlərdə yaddaş zəifləyir, buna səbəb damarlarda kirəclənmənin olmasıdır. Əhval-ruhiyyə pozulur, dəridə qırışlar yaranır və s. Bildiyimiz kimi, orqanizmdə bütün proseslər zəncirvari şəkildə bir-biri ilə əlaqədardır. Bunlardan birinin zədələnməsi digərlərinə də avtomatik şəkildə təsir edir.

### Siqareti atan kimi... bunlar başlanır

Gəlin görək siqareti tərgitmənin ilkin faydaları nədir? Yəni orqanizm ilk dövrlərdə hansı dəyişimə uğrayır. Məsələn, 20 dəqiqə sonra qan dövranı tənzimlənir. Buna görə də əllər və ayaqlar isinməyə başlayır. 8 saat sonra qanda oksigenin həcmi artır. Ürəyin fəaliyyəti normallaşır. 24 saat sonra zəhərli maddə olan karbon monooksid orqanizmdən xaric olur. Ağciyərlərdəki bəlğəm azalmağa başlayır. 48 saat sonra nikotin orqanizmdə artıq olmur. Dad və qoxu hiss etmə qabiliyyəti normala dönür. 72 saat sonra tənəffüs yolları tüstüdən tam təmizləndiyi üçün nəfəs almaq asanlaşır. 2-12 həftə sonra qan dövranı bütün bədəndə düzəlir. Yerimək asanlaşır. 3-9 ay sonra öskürək, nəfəs darlığı düzəlir. Ağciyərin fəaliyyəti yüzdə 5-10 nisbətində artır. 5-10 il sonra infarkt riski heç siqaret çəkməmiş biri ilə bərabər olur. Ağciyər xərçənginə tutulma riski azalır.

### Ən effektli üsul - akkapunktur - 12 saat çəkmək olmaz

Dünən bir çox tibb saytlarında gəzişmə edib, siqareti atmağın qızıl düsturlarını araşdırdıq. Məlum oldu ki, ən effektli üsul akupunktur sayılır. Akupunktur müalicəsinə getmədən öncə ən azı 12 saat boyunca siqaret çəkmək olmaz. Adətən iki və ya üç seans tətbiq etmək yetərlidir. Asılılıq səviyyəsi yüksək olanlar üçün 3 seans şərtdir. Hər seans 2-3 gündən bir baş tutur. Müalicə 100-125 manata başa gəlir. Müsbət nəticəyə 90 faiz söz verilir.

**Hipnoz üsulu.** Bu üsul köməkliyi ilə siqareti atmağın effekti var. Bu zaman siqaret şüur altında yerləşmiş və bu səbəbdən avtomatikləşmiş güclü bir asılılıq kimi təsvir edilir. Tez-tez təkrarlanan (ən azı 21 dəfə) hər düşüncə və ya davranış şüura keçərək qeydə alınır və vərdiş halına gəlir. Bu mənada hipnozun siqareti atmaq üçün effektli üsul olduğu qeyd edilir. Hipnozla siqaret çəkməyə səbəb olan vərdişlərin kökləri şüur altından silinir. Bu üsulu tətbiq edənlər, beş seans boyunca bezmədən, darıxmadan siqareti atdıqlarını söyləyirlər. Hər seans 75 manatdan başlayır. Müsbət nəticəyə yenə də 90 faiz söz verilir.

Başqa bir üsul Allan Carr adlanır. Bu üsulun yaradıcısı Allan Carr adlı bir insandır. O da gündə altı saatlıq bir psixoterapiya seansı ilə siqaret asılılığına son qoymağı hədəfləyir. Seans müddətində, fasilələr zamanı siqaret içmək olur, amma üçüncü mərhələdə son siqaretinizi çəkdiyiniz bildirilir. Üç ay içində siqareti tərgidə bilməyənləri seans pullarını geri qaytarırlar. Müəyyən seanslardan sonra bol su içmək və tez-tez duşa girmək də tövsiyələr sırasındadır.

İdman siqareti əvəzləyəcək ən yaxşı vasitədir. İdmandan sonrakı şirin yorğunluqdan sonra heç bir orqanizm üçün siqaret çəkmək cazibədar görünməyəcək. Buna görə də siqareti atmaq istəyənlərin step rəqsi, yoqa təlimi, tennis və ya qaçışa meyl etməsi arzuolunandır. Əgər bütün bu sadaladıqlarımıza siqareti atmağa qərar verdiyiniz ilk gün başlasanız, nəticə ikiqat uğurlu olar. Gimnastika ilə bağlı kitab alıb, içindəkiləri evdə tətbiq etmək də pis sayılmaz.

Siqareti atmaq istədiyiniz gündən bir gün öncə çoxlu siqaret çəkmək də arzuediləndir. Yeni siqaretin yarada biləcəyi ən bərbad vəziyyətə düşmək lazımdır ki, ondan iyrənmək də asan olsun. Duman içində bir otaq, acışan bir boğaz, ağızda nikotin dadı və qıpqırmızı gözlər.

### Bu yeməkləri yeyin, bu addımları atın və siqaretə əlvida deyin

10 addımla bu istəyinizə daha tez nail ola bilərsiniz. Özünüzə güvənin. Əsas odur ki, siqareti tərk edə biləcəyinizə inanın. İlk olaraq siqareti atmaq səbəblərini və əldə edəcəyiniz qazancları yazın. Məsələn, daha uzun yaşamaq, özünüzü daha yaxşı hiss etmək, pul yığmaq, pis qoxumamaq. Yazdığınız qeydləri hər gün oxuyun.

Ailənizdən və dostlarınızdan sizin qərarınızı dəstəkləmələrini və kömək etmələrini istəyin. Siqareti atdığınız ilk günlərdə müəyyən çətinliklərlə üzləşəcəksiniz. Onlardan sizə qarşı daha səbirli olmalarını istəyin.

Siqareti atmaq üçün dəqiq bir gün təyin edin. Bu günün yeni həyatınızın başlanğıcı olduğunu düşünün.

Özünüz üçün xüsusi idman proqramı hazırlayın. İdman siqareti unutmaq üçün yaxşı vasitədir. Bundan əlavə, idman stressi azaldır, siqaretin bədəninizə vurduğu ziyanları aradan qaldırmağa yardım edir. Daha yaxşı olar ki, həftədə 3-4 dəfə 30-40 dəqiqə idmanla məşğul olasınız.

Hər gün 3-5 dəqiqə nəfəs idmanı edin. Gözlərinizi yumun, burnunuzla dərindən nəfəs alın, nəfəsinizi bir neçə dəqiqə saxlayın və yavaş-yavaş ağızla verin. Hər dəfə siz bu yolla daha təmiz nəfəs aldığınızın şahidi olacaqsınız.

Siqareti tamamilə atacağınızı təyin edəcəyiniz günə kimi müəyyən addımlar atın. Məsələn, siqaretdən gündəlik istifadəni azaldın. Hər gün başqa markalı siqaretdən istifadə edin.

Dişlərinizi tez-tez təmizləyin.

Çoxlu su için. Su hər mənada bədən üçün faydalıdır. Su bədəndən nikotin kimi zərərli maddələrin çıxarılmasına kömək edir. Su iştaha da azaldır.

Ağzınızdakı boğulma hissini aradan qaldırmaq üçün bir iş tapın. Məsələn, saqqız çeynəyin, su için, qoz-fındıq yeyin və s.

Siqareti tərk edəndən sonra özünüzü mükafatlandırın.

Siqaret aludəçiləri qidalanmaya xüsusi diqqət göstərməli, meyvə-tərəvəz məhsullarını çox istehlak etməli, səhər yeməyindən imtina etməməlidirlər. Araşdırmalara görə, siqaret çəkənlərin orqanizmində C, A, E, B qrupu vitaminləri çatışmır. Diyetoloqlar təsdiq edirlər ki, pomidor, bibər, badımcan, lobya, xiyar, kərəviz, alma, üzüm, nanəli konfetlər, quşqonmaz və süd siqareti atmağa kömək edir. Bu vərdişdən tez qurtarmaq üçün kofe, çay və kola içkisindən imtina etmək lazımdır. Tərkibində kofein olan bütün ərzaqlar siqaretdən alınan həzzi artırır. Siqareti atmaqda çətinlik çəkənlərə mütəxəssislər çoxlu sitrus meyvələri, güclü antioksidant kimi soğan, sarımsaq yeməyi məsləhət görürlər. Onlar siqaret çəkənlərin orqanizmində çatışmayan "C" vitamini ilə zəngindirlər. Hər gün mütləq 1000 mq C vitamini qəbul edilməlidir.

**Sevinc TELMANQIZI**



# Azərbaycan əhalisinin sayı 10 milyona yaxınlaşır

**Bu ilin əvvəlindən ölkə əhalisinin sayı 13 686 nəfər və yaxud 0,1% artaraq 2017-ci il mart ayının 1-i vəziyyətinə 9 823 667 nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, əhalinin bir kvadrat kilometrə düşən sıxlığı 113 nəfər olub. Əhalinin ümumi sayının 53,0%-i şəhər, 47,0%-i isə kənd sakinlərinin, 49,9%-i kişilərin, 50,1%-i isə qadınların payına düşür. Hazırda hər 1000 kişiyə orta hesabla 1006 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-fevral ayları ərzində ölkədə 24648, yaxud hər gün orta hesabla 418 doğulmuş körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 15,7 təşkil edib. Körpələrdən 424-ü əkiz, 12-si üçəm doğulanlardır. Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 47,3% təşkil edərək hazırda hər 100 doğulan qıza 112 oğlan düşür (bioloji norma 105-107 təşkil edir). Hazırda ölkədə əhalinin təkrar istehsalı təmin olunaraq uşaq doğmaq qabiliyyətinə malik olan hər bir qadına bütün ömrü boyu 2,0 uşaq düşür.

2017-ci ilin yanvar-fevral aylarında ölkədə 11070 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 7,1 təşkil edib.

Bu ilin ilk iki ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 8476 nikah və 2422 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,4, boşanmaların sayı isə 1,5 olub. Bu ilin yanvar-fevral ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 306 nəfər gələn və 198 nəfər ölkədən gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 108 nəfər təşkil edib.

# İki nəfərin ölümünə səbəb olan şəxsə 11 il cəza istənilməsi etiraza səbəb oldu



**Yol qəzasında 2 nəfərin ölümünə səbəb olan şəxsə prokuror 11 il cəza istəyib. Zərərçəkmiş tərəf isə narazı qalıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində yol qəzası törədən Səfərov Anarın cinayət işi üzrə məhkəmə prosesi keçirilib.

Hakim Rahib Slamanovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı A.Səfərovun 11 il azadlıqdan məhrum edilməsini istəyib.

A.Səfərovun vəkili müdafiə çıxışında deyib ki, hüquqlarını müdafiə etdiyi şəxs ilk dəfədir cinayət əməli törədir və peşmandır.

Yol qəzasında dünyasını dəyişən şəxslərin məhkəmə zalında olan yaxınları isə qərardan narazı olduqlarını bildiriblər.

Növbəti məhkəmə prosesi aprelin 26-na təyin edilib.

Qeyd edək ki, yol qəzası ötən il iyun ayında Binəqədi rayonunda Xocəsən qəsəbəsində baş verib. A.Səfərov idarə etdiyi avtomobillə yolu keçən üç nəfəri vurub, onlardan biri hadisə yerində ölüb.

Hadisəni Xırdalan şəhər sakini Anar Səfərov idarə etdiyi "Nissan" markalı avtomobillə törədib.

Qəzada Bakı şəhər sakinləri Cavanşir Kirmirzəyevi, Səbuhi Şahmarovu və İsmayıl Hümbətovu vurub.

Nəticədə C.Kirmirzəyev hadisə yerində ölüb, digər piyadalar isə xəstəxanaya yerləşdirilib. Xəstəxanaya çatdırılan yaralılardan Səbuhi Şahmarov orada dünyasını dəyişib.

❑ **İ.MURADOV**

**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Bərdə sakininin evində avtomat, 17 qumbara aşkarlandı

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Bərdə rayonu Qaradağlı kəndində yaşayan Babək Nərimanovun evində odlu silah-sursat gizlətməsi barədə əməliyyat məlumatı daxil olub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Baş İdarə əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində B. Nərimanov saxlanılıb.

Onun yaşadığı evin zirzəmisinə baxış zamanı oradan "AK-47" markalı avtomat silah, 17 ədəd qumbara, 790 ədəd müxtəlif çaplı patron, 6 ədəd alışdırıcı və 5 ədəd patron darağı aşkar edilərək götürülüb.

Saxlanılan şəxs ifadəsində silah-sursatı bir neçə il bundan əvvəl tapdığını və evində gizlətdiyini etiraf edib.

Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işləri başlanılıb, zəruri istintaq hərəkətləri, eləcə də əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**Elan**

**İsgəndərova Elnarə Oruc qızının adına olan Bakı şəhəri Qaraçuxur qəsəbəsi 4048/49 məh., ev 1, m.14 ünvanının kupçası itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Mərkəzdə, "Gənclik" metrosunun çıxışında kupçalı tam 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**

**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

## Aeroport yolundakı dəhşətli qəzada ölənlərdən biri "MTN işi" üzrə zərərçəkmiş imiş



**Bakının Suraxanı rayonunda dəhşətli qəza ilə bağlı yeni faktlar üzə çıxıb. Teleqraf.com xəbər verir ki, avtomobil qəzası zamanı baş vermiş yanğında vəfat edənlərdən birinin ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun cinayət işi üzrə zərərçəkmişlərdən biri olduğu məlum olub.**

Bu, 1973-cü il təvəllüdlü Gülağa Quliyevdir.

İttihama görə, Gülağa Quliyevin digər zərərçəkmiş Namiq Orucovun sürücüsü vəzifəsində çalışdığı göstərilib. O, istintaqda zərərçəkmiş şəxs kimi tanınıb.

Gülağa Quliyev aprelin 12-də Sabunçu Rayon Məhkəməsinin inzibati binasında, Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən qapalı prosesdə ifadə verib.

Gülağa Quliyev bildirib ki, 2015-ci ildə N.Orucovu İlham Qasımovun bacısı oğlunun toyuna aparıb. Orda dava düşdüyünü və saxlanıldığını deyən Gülağa Quliyev daha sonra günahsız olduğu üçün buraxıldığını bildirib.

Məlumat üçün bildirək ki, dəhşətli qəza aprelin 14-də saat 8:00 radələrində Suraxanı rayonu ərazisində - Zığ-Aeroport yolunda baş verib. Bakı şəhər sakini Sadiq Edilov idarə etdiyi "KİA" markalı avtomobili qarşıda gedən paytaxt sakini Gülağa Quliyevin idarə etdiyi "VAZ-2104" markalı avtomobilə vurub və "VAZ" markalı avtomobildə yanğın baş verib.

Nəticədə Gülağa Quliyev və sərnişinlər - paytaxt sakinləri Narif Sadıxov və qardaşı Elçin hadisə yerində ölüblər.

## Arvadı dələduzluğa görə tutulan sabiq polis rəisinə ölkədən çıxış qadağası...

**Sabiq polis rəisinin arvadının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı yekunlaşıb.**

Məhkəmədə zərərçəkmiş tərəf sabiq polis rəisi Mahir Əkbərovun məhkəməyə məcburi gətirilməsi və yenidən dindirilməsi ilə bağlı vəsatəti geri götürüb. Məhkəmə də M.Əkbərovun məhkəməyə məcbiri gətirilməsi ilə bağlı qərarı ləğv edib. Ancaq M.Əkbərovun ölkədən çıxışına qadağa qüvvədə saxlanılıb.

Məhkəmə istintaqı başa çatıb və dövlət ittihamçısı çıxış üçün vaxt istəyib.

Növbəti məhkəmə prosesi aprelin 26-na təyin edilib.

Bildirək ki, L.Əkbərovanın işi üzrə bir neçə nəfər zərərçəkən kimi tanınıb. Onlar da işə düzəlmək, təqaüdə çıxmaq üçün pulları zərərçəkmişlərdən biri olan Anarə Məmmədova vasitəsilə Leyla Əkbərovaya çatdırıblar.

Anarə Məmmədova ərinə ikinci təhsil diplomu almaq üçün Mahir Əkbərova 12 min manat verdiyini deyir. Bundan əlavə, A.Məmmədova iddia edir o, digər qohumlarını da işə düzəlmək, təqaüdə çıxmaq üçün L.Əkbərova ilə tanış edib və ümumilikdə Əkbərovlara 116 min manat pul veriblər. Zərərçəkmişlər bu dələduzluq işində Mahir Əkbərovun da əlinin olduğunu deyirlər.

Leyla Əkbərova Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq) və 320-ci (saxta sənəd hazırlama) maddələri ilə ittiham olunur.

Qeyd edək ki, vaxtilə 95 saylı orta məktəbdə müəllimə işləyən Leyla Əkbərova dələduzluq söhbətləri ortaya çıxandan sonra əri Mahir Əkbərovun qardaşı Elçin Əkbərov vasitəsilə xaricə qaçmaq istəyirmiş.

O, pasportunu dəyişdirərkən "ASAN Xidmət"də saxlanılıb. Elçin Əkbərov Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrində rəis işləyib və hazırda Almaniyada mühacir həyatı yaşayır.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 80 (6694) 18 aprel 2017

# Eşşəyin əti yox, dərisi dərman imiş...

## Tahir Əmiraslanov: "Əgər bir heyvanın ətini tarixən babalarımız yeməyibsə, onu bizə yedirmək lazım deyil"



**Bir müddət öncə ölkədə 5 min eşşəyin yoxa çıxması haqda iddialar səsləndi. Bu məsələ sosial şəbəkələrdə, eyni zamanda medianın gündəmindən düşmür. Kimisi yoxa çıxan eşşəklərin kolbasa sexlərinə, kimisi restoranlara, kimisi dönərxanalara verildiyini, kimisi isə sallaqxanalarda dana ətinə qatılaraq satıldığını iddia edir. İş o həddə çatıb ki, insanlar ət almağa belə artıq tərəddüd edir. At, eşşək və digər heyvanların əti bir sıra ölkələrin mətbəxində yer alsa da, Azərbaycanda bu heyvanların ətinin yeyilməsi ənənəsi olmayıb.**

Azərbaycanlılar daha çox dana və quzu əti yeməyə üstünlük verir. Mütəxəssislər at, eşşək ətlərini dana ətindən ayırd etməyin çətin olduğunu bildirirlər. Ancaq nə qədər çətin olsa da, bunu ayırd etmək mümkündür. Məsələn, eşşək əti daha tünd qırmızı, sanki ciyər rəngində, dana əti isə daha açıq qırmızı rəngdə olur. Uzunqulaq ətinin lifləri daha sərtdir və bu, çeynəndiyi zaman da hiss edilir. Bundan başqa, yağı sarı rəngdə olur. Ancaq eşşək ətinə ədviyyatlar vurulub bişirildikdə onun dadını dana ətindən ayırd etmək olmur.

**Bugünlərdə Kənd Təsərrüfatı Nazirliyi Aparatının Heyvandarlığın inkişafı şöbəsinin müdiri Qalib Əbdüləliyev azvision.az-a açıqlamasında eşşək ətinin zərərsiz olduğunu deyib. Onun sözlərinə görə, dünyanın bir çox ölkələrində eşşək əti mətbəxdə istifadə olunur və qida kimi qəbul edilir:** "Eşşək əti zərərli ət deyil. Bizdə ənənəvi olaraq eşşək ətindən istifadə olunmur. Bəzi hallarda rast gələnən neqativ hal ondan ibarətdir ki, eşşək, at əti və s. ətlər öz adı ilə deyil, başqa adlarla təqdim olunur. Məsələn, mal əti adı ilə istehlakçılara satılması qanun pozuntusudur. Eşşək əti öz adı ilə müvafiq qaydada müayinələrdən keçsə, mənşəyi bilinsə və satışa təqdim olunsa, istehlak oluna bilər. Eşşək adı ilə at ətinin satılması hallarına bizdə rast gəlinməyib".

**Azərbaycan Milli Kulinariya Mərkəzinin (AMKM) baş direktoru Tahir Əmiraslanov "Yeni Müsavat"a açıqlamasında indiki kolbasalara və lülə kababa vurulan ətin tərkibi barədə düşünmək belə istəmədiyini dedi:** "Türkmənlər at ətini, qırğızlar maral və dəvə ətini yemirlər. Biz isə dəvə ətini yeyirik. Hər millətin özünün şəraitinə, yarandığı yerə görə qida rasionu formalaşıb. Əgər bir heyvanın ətini tarixən babalarımız yeməyibsə, onu bizə yedirtmək lazım deyil. Əgər kimsə eşşək yemək istəyirsə, ətin üzərinə yazılmalıdır ki, tərkibində eşşək əti var. İslam dininin də qadağan etdiyi şeylər var. Təsəvvür edin ki, kolbasanın içinə donuz əti vursunlar və üstünə yazmasınlar. Bu, müsəlman üçün təhqirdir. Amma rus üçün normaldır. Biz bu tip heyvanları yemədiyimiz üçün onun xeyir və zərərlərini də bilmirik. Bu cür ətləri yemək olar, ya yox, bunu həkim müəyyənləşdirməlidir. Təsəvvür edin ki, it ətini də yeyirlər. Ancaq onu da seçərək, çünki hər itin əti yeyilmir. Onun ətinin xəstə olub-olmadığını bilmək olmur. Mən belə şeylərin əleyhinəyəm. Bir şeyi nəzərə alın ki, indi ətin kilosu 12 manatdır. Bir kilo farş almaq üçün 1 kilo 650 qram ət lazımdır. 1 kilo 650 qram ətin qiyməti isə hardasa 20 manata gəlib çıxacaq. Belə olan təqdirdə, lülənin kilosunu 8 manata necə satırlar?! Əgər bu, normal təzə ətdən hazırlanmış lülədirsə, onu 8 manata satmaq olarmı? 20 manat elə ətin maya dəyəridir. Bunun biznesmenlərə 15-20 faiz xeyri qalmalı, işçinin maaşı verilməlidir. Buna görə də bu qiymət şübhə yaradır. Bazarlarda kilosu 3-4 manata kolbasa necə satıla bilər? Təsəvvür edin ki, onun içindəki nədir! Deyirlər ki, Hindistandan kilosu 3 manata ət gətirilir. Hindistanda heyvanı, malı öldürəni elə yerindəcə öldürərlər, parçalayarlar. Yəqin ki, bu düzgün məlumat deyil, ya da ki, ölmüş inəklər gətirilir. 25 litr süddən bir kilo yağ alınırsa, yağın topdansatış qiyməti manat yarım, iki manat ola bilərmi? Bu bir bəladır. Ancaq nə qədər ki, biznes bu qaydalarla idarə olunur, biznesmenlər gəlir əldə etmək üçün hər şeyə gedəcək. Bu, kapitalizmin işləridir. Kim nədən istəyir kolbasa istehsal edir, lülə hazırlayır. Onun içinə nələr qatırlarsa, bilmək belə istəmirəm".

Bir maraqlı məqam isə odur ki, eşşəyin əti bir o qədər faydalı olmasa da, onun dərisindən jelatin halında istifadə edilməsi çox qiymətlidir. Jelatin dərman məhsullarının hazırlanmasında, kimyəvi texnologiyada çox geniş yayılmış və qiymətli material hesab edilir.

❑ **Günel MANAFLI**

# Nübar meyvələrin qiyməti ucuzlaşacaqmı?

## Natiq Cəfərli: "Ola bilər ki, bu il qiymətlər əvvəlki illərdə öyrəşdiyimiz səviyyədən aşağı düşməsin"

**Hər mövsümdə ürəyimiz istəyən meyvə və tərəvəzi ala bilmək bir tərəfdən üstünlük hesab edilsə də, digər tərəfdən sağlamlığımıza zərər verirmi sualını yaradır.**

Bu gün bazarların və marketlərin piştaxtalarını, hətta bir sıra metro çıxışlarını belə mövsümə uyğun olmayan meyvələr - alça, çiyələk, ərik, gavalı, qarpız, qovun bəzəyir. Yan-yana düzülən bu meyvə və giləmeyvələri görən hər kəs ən azından yaxınlaşıb qiymətini soruşur.

Çünki meyvələrin parlaqlığı sanki insana "gəl, məni al" deyir. Ancaq qiymətini öyrəndikdə geri çəkilmək məcburiyyətində qalırsan. Düzdür, mövsümə uyğun olmayan bu meyvələri alıb dadanlar da az deyil. Ancaq əksəriyyət bu cür mövsümsüz yetişən meyvələrin insan səhhəti üçün zərərli olduğunu düşünürlər. Elə satıcılar da meyvələrin alıcılarının az olduğunu deyirdilər. Onlar bu cür meyvələri, yaşlı insanların və hamilə qadınların daha çox aldığını deyir.

**Çiyələk satıcısı Elnur Əliyev bu cür meyvələrin alıcılarının hazırda az olduğunu deyir:** "Çiyələyin kilosunu 6 manata satıram. Ancaq alan yoxdur Çox adam qorxur ki, mövsümü olmadığı üçün zəhərlənmə verə bilər. Elə vaxt olur ki, bir ovuc çiyələk çəkdirirlər. Bu da heç yarım kilo etmir. Onu da alanlar daha çox hamilə qadınlar, bir də yanında körpə uşağı olanlardır. Uşaq görüb istədiyi üçün ona alırlar".

**Digər meyvə satıcısı isə bir aya kimi qiymətlərin aşağı düşəcəyini dedi:** "Bu cür meyvələr təxmini 1 aya yetişmiş olacaq. Bu zaman da qiymətlərdə endirim olacaq. Çox ucuz olmasa belə, ən azından indikindən ucuz olacaq".

Mütəxəssislərin fikrincə, süni istilik və hormonlarla yetişdirilən hansısa meyvənin keyfiyyəti öz iqlimində, təbii istilikdə yetişən meyvənin keyfiyyəti qədər olmur. Mütəxəssislər iyunda albalı, alça, ərik, şaftalı, tut, təzə kartof, təzə paxla, göy noxud, bibər, pomidor, xiyar, kol paxlası, iyul ayında ərik, şaftalı, yemiş, sarı alça, qarpız, gilas, təzə paxla, badımcan, bolqar bibəri, avqust ayında isə yemiş, armud, şaftalı, albalı, böyürtkən, əncir, üzüm, bibər, balqabaq, qarğıdalı yeməyi daha məqsədəuyğun hesab edir.

Hazırda satışda olan və plastik qablarda saxlanılan meyvələr bizim sağlamlığımız üçün ciddi təhlükə mənbəyi hesab edilir. Məsələn, ərik dərildikdən sonra üç-beş gündən artıq qalmamalıdır. Çünki ərik tez xarab olan meyvədir. Ticarət şəbəkəsində əriyin yaxşı və keyfiyyətli qalması üçün onu -0,5 dərəcə C + 0,5 dərəcə C temperaturda saxlamaq lazımdır. Ev şəraitində isə +5 dərəcə C +8 dərəcə C temperaturda saxlanıla bilər. Əriyin saxlanması zamanı nisbi rütubətliyi 90 faiz olmağı məqsədəuyğundur. Ancaq bu meyvə bazarlarda və mağazalarda günlərlə qalır və bu da onun alıcıları üçün təhlükəli hesab edilə bilər. Mütəxəssislər qarpız, yemiş kimi bostan məhsullarının isə yetişmə vaxtının iyul ayının sonları, avqust ayının əvvəlləri olduğunu bildirirlər. Onların sözlərinə görə, iki ay yarıma ərsəyə gələn qarpızın yetişməsi üçün effektiv temperatur göstəricisinə yalnız həmin aylarda təsadüf olunur.

Qeyd edək ki, meyvələrin bu cür baha olması insanlarda təbii yetişmə zamanında da qiymətlərin bu cür olması narahatlığını yaradıb. Elə satıcılar da meyvələrin qiymətinin nisbətən ucuzlaşacağını deyirlər. Onların sözlərinə görə, meyvənin ərsəyə gəlməsində istifadə edilən gübrə və digər lazımlı vasitələrin qiyməti bahalaşdığı üçün ola bilər ki, gözlənildiyi kimi, yaxın 15 gündə qiymətlər enməsin.

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, qiymətlər sürətlə ucuzlaşmır:** "Meyvələrlə bağlı mövsümi amillər həmişə mühüm rol oynayıb. Təbii ki, bəlkə də 10-15 gündən sonra yox, daha sonralar qiymətlərdə ucuzlaşmanı hiss edə bilərik. Amma hər bir halda, bir müddət sonra məhsul bolluğu yaranan kimi bazar iqtisadiyyatının qaydaları işə düşür. Nə qədər çox məhsul bazara çıxırsa, qiymət bir o qədər aşağı düşür və çox güman ki, belə də olacaq. Amma vaxt etibarı ilə yaxın zamanlarda baş verməmə ehtimalı var. Çünki bazar oyunçuları da, kənd təsərrüfatı ilə məşğul olanlar da çalışırlar ki, məhsullarını mərhələ-mərhələ bazara çıxarsınlar ki, həmin bolluq yaranmasın və bu, qiymətlərə mənfi təsir göstərməsin. Amma çox güman ki, may ayının ortalarından yeni çıxan meyvələrin qiymətlərində müəyyən azalmaları görəcəyik. Yay aylarının əvvəllərindən qiymətlərin daha aşağı düşməsi ehtimalı var. Yəni bu mövsümi amillər həmişə Azərbaycanda qiymətlərin formalaşmasında mühüm rol oynayıb. Bu, sırf təbii proseslərə, iqtisadi qanunlara əsaslanır. Məhsul bolluğu həmişə qiymətə təsir göstərib və aşağı düşməsinə səbəb olur. Amma bir maraqlı məqam var ki, biz bu il onu müşahidə edə bilərik. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan insanların özlərinin xərcləri artıb. Yəni ölkədəki devalvasiyalardan sonra qiymət artımlarından sonra həmin işlə məşğul olan insanların xərcləri artdığından ola bilər ki, qiymətlərin çox da aşağı düşməsində maraqlı olmasınlar. Çünki istehsal etdikləri məhsulu bazara çıxartsalar, onların xərcləri artdığından və xərclərini qarşılayacaq qədər vəsait qazanmaq istəkləri yaranır. Bu nöqteyi-nəzərdən ola bilər ki, bu il qiymətlərin keçən ilə nisbətən sürətlə ucuzlaşmasını biz görməyək və qiymətlər əvvəlki illərdə öyrəşdiyimiz səviyyədən aşağı düşməsin. Amma hər bir halda qiymətlərdə enmələr olacaq".







❑ **Günel MANAFLI**

❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 80 (6694) 18 aprel 2017



## Bu qidalar xərçəngi qovur

Araşdırmalar nəticəsində məlum olub ki, xərçənglə müalicədə təsirli olan tərəvəz və bitkilər isə bunlardır:

**Qara üzüm** - çəyirdəyini atmadan bol-bol istifadə edin. Çünki qabığında və tumunda "vesibretrol" deyilən xüsusi bir maddə var. Bu maddə bədəni birbaşa xərçəngə qarşı qoruyur.

**Pomidor** - içində olan likopen və selenium prostat, kolon və mədə xərçənginə qarşı təsirli olur.

**Kökün** tərkibində də olan betakarotenler; ümumiyyətlə qırmızı tərəvəz və meyvələrdə olan bir maddədir. Betakarotenler DNT ziyanına mane olarlar , xərçəngə qarşı bədənin müqavimətini artırır və immun sistemini xəbərdar edirlər.

**Göbələklər** xərçəngdən qorunmada təsirlidir. Xərçəng xəstələrinin müalicəsi əsnasında göbələk ekstraktları istifadə etmələri təklif edilir. Maitake göbələyi; məmə xərçəngi, beyin şişləri, dəri xərçəngi və qaraciyər xərçəngində təsirli olur. Şitaake göbələyi isə ginekoloji şişlər, prostat xərçəngi və ya şikayətlərində istifadə edilməsi təklif edilir.

**Zəncəfil** - xərçəng müalicəsi əsnasında ürək bulanma olarsa, zəncəfil istifadə edə bilərsiniz.

# Cib telefonu insanı niyə kökəldir?

Aparılan bir araşdırmaya görə, cib telefonları beyindəki doyma hissini yox edərək şişmanlığa səbəb olur. Türkiyənin Qazi Universiteti Tibb Fakültəsi araşdırmaçıları müəyyənləşdiriblər ki, cib telefonlarındakı elektromaqnit sahə beynin yemək yeyərkən doyma hissini verən MSH adlı hormonda azalmaya səbəb olur.



Buna görə də cib telefonunun yaydığı şüalara müəyyən müddət məruz qalanda, yemək yeyərkən ''doyma'' duyğusu normaldan daha gec inkişaf edir. Toxluq hissinin gecikməsi sayəsində isə fasiləsiz yemək ehtiyacı şişmanlığa səbəb olur. Təcrübə öncə heyvanlar üzərində aparılıb. Heyvanların aclıq-toxluq hormonlarından ortaya çıxan dəyişikliklər onların çəkisinə təsir edib. Təcrübə zamanı heyvanların bir qrupuna bir ay boyunca 1800 MHz, ikinci qrupa bir ay boyunca 2100 MHz, üçüncü qrupa isə iki ay ərzində 2100 MHz radiofrekans tətbiq edilib. Nəticədə daha çox şüaya məruz qalan heyvanlarda doyma hissi azalıb. Doyma hissi azaldığı üçün isə onlarda fasiləsiz yemək ehtiyacı özünü göstərib. İş nəticələri elm dünyasına ilk dəfə təqdim olunub və bu, beynəlxalq jurnallarda nəşr olunacaq.

# İnsanın ürəyi dayanandan sonra 3 dəqiqə beyni işləyir




Son vaxtlar elmi araşdırmalar ürəyi dayanan bir insanın ilk 3 dəqiqədə şüurunun açıq olduğunu müəyyənləşdirib. Southampton Universiteti alimlərinin gəldiyi nəticəyə görə, bu, 2 mindən artıq insan üzərində aparılan araşdırmadan sonra təsdiqlənib. Sözügedən araşdırmaya qədər alimlər bir insanın bütün beyin fəaliyyətinin ürək bədənə qan dövranını kəsdikdən 30 saniyə sonra dayandığına inanırdı. Amma Southampton Universitetində aparılan araşdırma bu nəticəyə qarşı çıxır. Elm dünyasında yeni cığır açan bu araşdırmanı həyata keçirən heyətə rəhbərlik edən doktor Sam Parnia yazıb ki, düşünülənlərin əksinə olaraq, ölüm bəlli bir anda meydana gəlməz. Ciddi bir xəstəlik ya da qəza nəticəsində ürək, ciyərlər və beyin öz funksiyasını itirməyə başlayır. Tibbi müdaxilələr sayəsində bu sürəc tərsinə çevrilir, ani bir şəkildə ürəyi dayanan bir insan xilas edilə bilir. Bu cəhdlər işə yaramadığı zaman isə ölüm meydana gəlir. Aralarında Avstraliya, ABŞ və İngiltərədən xəstələrin də olduğu, keçmişdə ürəyi dayanaraq həyatda qala bilmiş 2060 adamla aparılan söhbətlər nəticəsində məlum olub ki, xəstələrin 40 faizi ölü olduqları klinik olaraq açıqlandıqdan sonra beyin funksiyalarının davam etməsi ilə bağlı bəzi şeylər xatırlayırlar.




**QOÇ** - Ötən günlərin rahatlığının ziddinə olaraq bu təqvimi bir qədər gərgin şəraitdə cərəyan edə bilər. Bu səbəbdən də sutkanı birtəhər ötürmək üçün saatları sadalayın.

**BUĞA** - Fəaliyyət sahəsində bəzi gərginliklə rastlaşma ehtimalınız var. Özünüzü təmkinli aparmaqla bu kimi xoşagəlməzlikləri dəf edə bilərsiniz. Axşama yaxın dostlarınızla birgə olun.

**ƏKİZLƏR** - Əksər sahələrdə uğurlu məqamlar yaşayacaqsınız. Ürəyinizcə olan təkliflər, maraqlı adamlarla qarşılaşmaq ovqatınızı yüksəldəcək. Saat 18-dən sonra isə özünüzə qarşı diqqətli olun.

**XƏRÇƏNG** - Yalnız ailə-sevgi məsələlərində uğurlarınız mümkündür. Nə qədər gec deyil, qəlbinə dəydiyiniz adamlardan üzr istəyin. Mübahisə etməklə özünüzü gərgin situasiyalara yuvarlamayın.

**ŞİR** - Bir qədər mübahisəli gündür. Mövqelərinizi sarsıtmaq üçün bədxah adamların təzyiqlərinə tuş gələ bilərsiniz. Özünüzü qoruyun. Əgər işlə bağlı maneə yoxdursa, səfərə çıxmaq olar.

**QIZ** - Dünyanın yumru olduğunu bilmək heç də qeybi bilmək deyil. Bilmədiyiniz şeylər daha çoxdur. Avestanın vacib prinsiplərindən olan Xeyirxah Fikirlə qidalanın. Ruhdan düşməyin.

**TƏRƏZİ** - Günün birinci yarısında daxili süstlüyünüz ovqatınıza mənfi təsir göstərsə də, özünüzdə iradə toplamağı bacarmalısınız. Çünki sonrakı saatlarda sevindirici məqamlar yaşayacaqsınız.

**ƏQRƏB** - Sizi görmək arzusunda olanların kamını ürəklərində qoymayın. Əks təqdirdə kimlərinsə qəlbinə dəyə bilərsiniz. Bu gün imkan tapıb müqəddəs ziyarətgahlara da baş çəkin.

**OXATAN** - Bu təqvimdə ən uğurlu hadisələr sizin bəxtinizə düşür. İşgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə olacaq. Bir sözlə, bürcünüz üçün ayın düşərli ərəfəsi bu gündən start götürəcək.

**OĞLAQ** - Bu gün heç kimin məsləhətinə əhəmiyyət verməyin. Bütün qüvvənizlə ürəyinizin sözünə qulaq asın. Günün ikinci yarısında isə darıxdığınız yaxınlarınızın evinə baş çəkin ki, rəğbət oyadasınız.

**SUTÖKƏN** - Planetiniz olan Uranın aktivləşmə dərəcəsinə çatması daxili gücünüzü, enerjinizi artıracaq. Bu isə uzaq görünən bəzi məntəqələrə tez yetişməyinizə rəvac verəcək. Səfərdə ehtiyatlı olun.

**BALIQLAR** - Olduqca təzadlı gündür. Qarşınızı kəsən maneələri dəf etmək istəyirsinizsə, etibarlı adamların məsləhətindən yararlanın. Saat 16-18 arası ulduzlar sizi sevindirməyə çalışacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İflic qız toy günü yeridi

8 ildir iflic olan Jaque Qoncer toyunda bir anda ayağa durub yeriyərək hər kəsi şok edib. Salondakılar və həyat yoldaşı isə göz yaşlarını saxlaya bilməyib. Boynundan aşağısı iflic olan Jaque 17 yaşında üzərkən başına dəyən bir zərbə nəticəsində iflic olub. Həkimlər böyük ehtimalla onun bir daha yeriyə bilməyəcəyini deyiblər. Qəzadan 6 ay sonra bir möcüzəni gerçəkləşdirən Jaque ayaq üstə dayanmağa başlamışdı. Ancaq 8 il boyunca əl arabasına məhkum idi. Toyundan 1 il öncə bir qərar verən qız toy mərasimi zamanı ayaq üstə duracağına və hətta keşişə doğru yeriyəcəyinə qərar verib. Öncə toy salonuna anası və babası ilə yanaşı girən gəlin sonra bir anda ayağa durub və yeriməyə başlayıb.



Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100